Beynəlxalq Xilasetmə Komitəsi
Azərbaycan Proqramı

# Azərbaycanda Qadınlara Qarşı Zorakılığın Qiymətləndirilməsi

***BXK-nın fəaliyyətlərindən faydalanan əhali arasında qadınların həyatında baş verən zorakılıq haqqında ümumi məlumat***

**İyun 2004**

# Beynəlxalq Xilasetmə Komitəsi
# Azərbaycanda Qadınlara Qarşı Zorakılığın Qiymətləndirilməsi
# 2004-cü il mart – may aylarında həyata keçirilmişdir

## Mündəricat

**Xüsusi Təşəkkürlər** .......... 2

**Istifadə Olunmuş Abbreviaturalar** .......... 3

**Xülasə** .......... 4

**Tarix** .......... 5

**Metodologiya** .......... 7

**Terminlər** .......... 9

**Azərbaycanda Qadınlar: Xülasə** .......... 10

**Azərbaycanda qadınlara qarşı zorakılıq: Statistik məlumatlar** .......... 11

**Mövcud Cavab və Xidmət Təminatı** .......... 13

Qadınlara Qarşı Zorakılığa Dövlətin Cavab Tədbirləri .......... 13
Qadınlara Qarşı Zorakılığa Qeyri-Hökumət Təşkilatının Cavab Tədbirləri .......... 15

**Fokus Qrupları və Fərdi Sorğular** .......... 17

Qadın Fokus Qrupları .......... 18
Qadın Fərdi Sorğularının Nəticələri .......... 23
Kişi Fərdi Sorğularının Nəticələri .......... 29
Sorğu Nəticələrinin Qarışıq Amilləri .......... 33

**Nəticələr** .......... 35

**Qarşısını alma və cavab tədbirləri:**
**Proqram tərtibatı üçün məsləhət olunan göstərişlər** .......... 36

**İstifadə olunmuş ədəbiyyat** .......... Error! Bookmark not defined.

**Əlaqələr Siyahısı** .......... 39

## Xüsusi Təşəkkürlər

Hazırkı qiymətləndirmə rəyinin hazırlanmasında bir çox ayrı ayrı şəxslərin və təşkilatların köməyi həlledici rol oynamışdır. Xüsusi təşəkkürlər UMCOR (Din üzrə Birləşmiş Metodist Komitəsi) benefisiarlarını cəlb etməklə fokus qrup müzakirələrinin təşkil olunmasına və köməkliyə görə bu təşkilatın əməkdaşları Barbara Qrinvudun, Təhminə Tağızadənin, Mətanət Vəliyevanın və Vüsalə Əsədovanın və əsas tərcümə xidmətlərinin göstərilməsi üçün işçilərin, Şəfəq Tukanova və Nailə Mustafayeva, təmin olunmasına görə CHF və Mercy Corps təşkilatlarının ünvanına çatdırılır.

Həmçinin, fokus qrupların planlaşdırılması və sorğu prosesində tərcümə işlərinin aparılmasında yorulmaz səylərinə görə BXK təşkilatının işçiləri Laçın Həsənovaya və Təranə Cəfərovaya, o cümlədən, bu layihənin həyata keçirilməsində vaxtlarını və qüvvələrini əsirgəməmiş BXK təşkilatının bir sıra digər işçilərinə də öz dərin minnətdarlığımı bildirirəm. Bizim bütün təyinat məntəqələrinə və sahələrə vaxtında və təhlükəsiz çatdırılmağımızı təmin etmiş Zaman Mahmudovun da əməyini yüksək qiymətləndirirəm.

Fulbright tədqiqat qrupunun əməkdaşı Laura Carey fokus qrupların yarısının sorğusunu asanlaşdırmış, fokus qrupları, sorğu sənədləri və prosesi üzrə dəyərli təkliflər vermiş və, həmçinin, son rəy haqqında hesabat üçün həlledici nöqteyi-nəzərin verilməsini təmin etmişdir.

Qadınlar arasında sorğuların aparılması üçün istifadə olunan anketlər USAID Azərbaycan/CDC (Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri) *Reproduktiv Sağlamlıq Sorğularından* götürülmüşdür və bu da xüsusi olaraq qeyd olunmalıdır.

Sorğuda və fokus qrupu prosesində iştirak edən şəxslərə və Azərbaycanda yaşayan bütün qadınların həyatında müsbət tərəfə daha çox dəyişikliklər etmək arzusu ilə özləri barədə məlumatları bölüşən qadınlara öz dərin minnətdarlığımı bildirirəm.

Katrin Qalenkamp - Məsləhətçi

## Istifadə Olunmuş Abbreviaturalar

| | |
|---|---|
| CDC: | Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri (XNPM) |
| FGW: | Qadın Fokus Qrupu (QFQ) |
| FSP: | Qadın Sorğu Iştirakçısı (QSI) |
| GBV: | Cinsi Zorakılıq (CZ) |
| GoA: | Azerbaycan Dövləti (AD) |
| IDP: | Məcburi Köçkün (MK) |
| IOM: | Miqrasiya üzrə Beynəlxalq Təşkilat (MBT) |
| IPV: | Yaxın Əlaqə Zorakılığı (YƏZ) |
| IRC: | Beynəlxalq Xilasetmə Komitəsi (BXK) |
| MSP: | Kişi Sorğu Iştirakçısı (KSI) |
| OSCE: | Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) |
| SPPRED: | Yoxsulluğun Azaldılması və İqtisadi Inkişaf üzrə Dövlət Proqramı (YAIDP) |
| UMCOR: | Din üzrə Birləşmiş Metodist Komitəsi (DBMK) |
| UNDP: | Birləşmiş Millətlər Təşkilatının Inkişaf Proqramı (BMTIP) |
| UNFPA: | Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (BMTƏF) |
| USAID: | Birləşmiş Ştatların Beynəlxalq Inkişaf Agentliyi (BŞBIA) |
| VAW: | Qadınlara Qarşı Zorakılıq (QQZ) |

## Xülasə

Qadınlara qarşı zorakılıq fundamental insan hüquqlarının pozulmasına gətirib çıxardan və ictimai həyatda qadınların tam və bərabər hüquqlu iştirakını məhdudlaşdıran qlobal problemdir. O stabil və ədalətli dövlətin inkişafı və qorunub saxlanılması yolunda çox ciddi maneədir. Azərbaycanın stabillik və tərəqqi yolunda inkişafına davam etdiyi bir zamanda qadınlara qarşı zorakılıq probleminin həm Azərbaycan dövləti, həm də bu problemin həllinə maliyyələşdirmə və inkişaf proqramları vasitəsilə öz təsirlərini göstərən təşkilat və qurumlar tərəfindən tam başa düşülməsinə və onun aradan qaldırılması üçün səy göstərilməsinə hələ də ehtiyac vardır.

Beynəlxalq Xilasetmə Komitəsi (BXK) qadınlara qarşı zorakılığın cəmiyyətdə uzun müddətli stabilliyin saxlanılmasına və milli inkişafa ciddi zərbə vurmasına inanaraq, yardım fəaliyyətinin həyata keçirdiyi sahələrdə bu cür zorakılığın dərəcəsini və təsirini müəyyənləşdirmək məqsədilə bu qiymətləndirməni həyata keçirməyi qərara almışdır. Bundan başqa, BXK bu cür zorakılığın qarşısını almaq və cavab tədbirlərini həyata keçirmək üçün Azərbaycanda mövcud olan fəaliyyət və təminatların xülasəsini verərək, bu sahədə qalmağında hələ də davam edən çatışmamazlıqları göstərmişdir.

Nəticələr bu məsələyə proqramlı yanaşmanın və böhran vəziyyətinə düşmüş qadınlara kömək məqsədilə xidmətgöstərmə mərkəzlərinin təəccüb doğuran dərəcədə olmamasını göstərmişdir. Hal hazırda Azərbaycanda qadınlara qarşı zorakılığın qarşısını almaq və cavab tədbirlərinin görülməsi üçün çox da geniş yayılmayan ümumi qlobal planlaşdırma forması mövcuddur. Bu məsələyə diqqətin artırılması məqsədilə bir sıra beynəlxalq və milli qeyri-hökumət təşkilatları (QHT) tərəfindən müxtəlif layihə və ya tədqiqat tədbirləri təklif olunmuşdur, lakin bu tədbirlərdən çox az qədəri zorakılığın qurbanı olmuş qadınlara birbaşa yardım göstərilməsi üçün xidmətlərin təmin olunması ilə nəticələnmişdir. Rayonlarda qadınlara qarşı zorakılığın qarşısını almaq və cavab tədbirlərini görmək üçün birbaşa həyata keçirilən hər hansı fəaliyyət, demək olar ki, yox dərəcəsindədir. Qadınların hüquq bərabərliyini qorumaq və qadınlara qarşı zorakılıq hallarını aradan qaldırmaq məqsədilə Azərbaycan dövləti tərəfindən müxtəlif hərəkət planlarının və qanunların yaradılması ilə bu istiqamətdə bir sıra müsbət addımların həyata keçirilməsinə baxmayaraq, dövlətin bu siyasətinin Azərbaycan qadınlarının gündəlik həyatında özünə yer tapması üçün işlər hələ görülməlidir. Yüksək riskli münasibətlərdən yaxa qurtarmalarına ehtiyacları olan qadınlar üçün hər hansı mühafizə və ya təhlükəsizlik tədbirləri yaradılmamış olaraq qalır və mövcud qanunvericilik-məhkəmə sisteminin qeyri-qənaətbəxş fəaliyyət göstəriciləri qadınları ədaləti bərpa etmək üçün həvəsləndirilməsinin qarşısını alır. Hal hazırda bu çatışmamazlıqların aradan qaldırılması üçün donor maraqların və fəaliyyətin sayı məhdud olaraq qalır.

Fokus qrup müzakirələrinin və sorğuların nəticələri onu göstərmişdir ki, Azərbaycanda qadınlara qarşı zorakılıq halları baş verir və buna eyni zamanda hələ də dözülür. Soruşulan qadınların otuz yeddi faizi (37%) onlara qarşı həyatlarında baş vermiş zorakılığın müxtəlif növləri barədə məlumat vermişlər; zorakılıqlar, başlıca olaraq, yaxın ailə münasibətlərində olan şəxslər tərəfindən törədilmişdir, lakin buraya, həmçinin, atalar, qardaşlar, qayınata və qayınanalar da daxil edilirlər. Sorğuda iştirak edən ərdə olan qadınların qırx üç faizi (43%) hal hazırki ailə münasibətlərində zorakılıq hallarının olması barədə məlumat vermişlər. Soruşulan kişi və qadınların çox hissəsi göstərmişdir ki, bir sıra müəyyən hallar qadınların fiziki zorakılığa məruz qalmasına səbəb olur. Qadınlar ərə getməmişdən qabaq öz doğma ata evlərində ya öz valideynləri arasında baş verən zorakılığın şahidi olur, ya da ki, yaxın ailə üzvləri tərəfindən onlara qarşı edilən zorakılığa məruz qalırlar. Qadınlar həyatlarında baş verən zorakılığın qarşısını almaq üçün heç bir səmərəli çıxış yolunu tapa bilmir və kömək üçün haraya müraciət etmələri barədə təsəvvürləri yoxdur. Maliyyə imkanlarının olmaması, cəmiyyətin onları qəbul etməməsi və günahlandırması, uşaqlarını itirmək qorxusu və istinad üçün müraciət oluna bilən kömək sisteminin olmaması qadınları zorakılıq münasibətlərinin baş verdiyi mühitdən aralanmaq fikrindən daşındırır. Bu məsələ, ictimai müzakirədən kənarda durmaqla və qadınların ailədə və cəmiyyətdə asılı vəziyyətini qəbul etməklə, mədəni sükutla əhatə olunmuşdur. Qadınlar onlara xidmətin göstərilməsini, kömək almalarını, həll yollarının tapılmasını və zorakılığa son qoyulmasını arzuladıqdarını deyirlər, lakin hal hazırda onların çox az seçim yollarına malik olmalarını qeyd edirlər.

Azərbaycanda qadınlara qarşı zorakılığın qarşısı alınması və cavab tədbirlərinin görülməsi sahəsində çox böyük çatışmamazlıqlar hələ də mövcuddur. Azərbaycanda uzun müddətli stabilliyin və inkişafın təminatı olaraq, dövlət orqanlarının bu məsələyə qarşı müəyyən işlər görməsi və müvafiq tədbirləri həyata keçirməsi, donor təşkilatların isə bununla əlaqədar öz təsirlərini artırması çox vacibdir. Bu kəskin ehtiyac qalmağında nə qədər davam edərsə, Azərbaycanda yaşayan kişi və qadınlar qadınlara qarşı zorakılığın davam etməsinin bir o qədər də şahidi olacaq və qadınlar inkişafda olan cəmiyyətin həyatında tam iştirak etmək və onün bəhrələrindən faydalanmaq imkanından məhrum olacaqlar.

*Qadınlara qarşı zorakılıq insan hüquqlarının pozulması hallarından bəlkə də ən birabırçı olan formasıdır. Və bu bəlkə də insan hüquqlarının ən çox yayılmış pozuntusudur. Bunun heç bir coğrafi sərhədləri, mədəniyyət və yaxud var-dövlət hüdudları mövcud deyildir. Bu zorakılıq köklü surətdə aradan qaldırılmayınca, biz dünyada bərabərliyin, inkişafın və sülhün bərqərar olması istiqamətində real müvəffəqiyyət qazanmağımız barədə heç bir şey danışa bilmərik.* — Kofi Annan, BMT-nin Baş Katibi

## Tarix

Dağlıq Qarabağ uğrunda 6 il davam edən müharibədən sonra 1994-cü ilin may ayında Azərbaycan və Ermənistan dövlətləri arasında atəşkəs elan olunmuşdur. Bu münaqişənin nəticəsi olaraq Azərbaycan torpaqlarının 20%-i Ermənistan təcavüzkar ordusu tərəfindən işğal olunmuş, 800 000 çox məcburi köçkün (MK) və qaçqınlar öz torpaqlarından qovulmuşdur. Sovet Ittifaqının süqutundan sonra yaranmış çətinliklərlə üzləşən ölkənin inkişafı heçə enmişdi. Iqtisadi və sosial şərait nəzərə çarpacaq dərəcədə çətinləşmiş və bu da ictimai sağlamlıq və məişət xidmətlərinin dağılmasına, təhsil standartlarının enməsinə, inkişaf etdirilməmiş dövlət idarəçiliyinə və qara bazar iqtisadiyyatının geniş vüsət almasına səbəb olmuşdur.

Sosial və iqtisadi şəraitin bu cür qeyri-müəyyən şəkildə mövcudluğu qadınların cəmiyyətdə tutduğu statusunu etibarsız edir. Sovet Ittifaqı dağıldıqdan sonra qadınların spesifik tələbatlarının təminatına yönəldilmiş dövlət proqramları ləğv olunmuşdu. Işləyən qadınların statistikası 1991-ci ildən stabil olaraq aşağı enmiş və kişi və qadın işçilərin əmək haqqlarında olan bərabərsizlik adi hala çevrilmişdi. Azərbaycan dövlətinin (AD) bu yaxınlarda ölkənin inkişaf siyasətində[1] qadınların tələbatlarını nəzərə almaq cəhdinə baxmayaraq, Azərbaycanlı qadınların gündəlik həyatında bu özünü çox az biruzə vermişdir.

Bu yaxınlarda BŞBIA-nin təqdim etdiyi Azərbaycan üzrə Cinsi Qiymətləndirmə Rəyində[2] göstərilmişdir ki, ailə-məişət zorakılığı anlıyışı əhalinin böyük hissəsi tərəfindən, bir qayda olaraq, ənənəvi norma kimi qəbul olunsa da, heç də tam başa düşülmür və ya geniş müzakirə mövzusu deyildir. Həmin qiymətləndirmə rəyi nəticəsində, həmçinin, məlum olmuşdur ki, vəzifəyə yüksəliş və işə götürmə zamanı olan məhdudiyyətlər, azyaşlı ailə qurma halları, zorla cinsi əlaqəyə girmə və, ümumiyyətlə, insan hüquqları barədə ümumi anlayışının olmaması qadınlara aid olaraq geniş yayılmışdır. Ehtiyat üçün belə bir əsas var ki, patriarxal ənənələrin cəmiyyətdə yenidən baş qaldırması Azərbaycanda qadınların statusunu risk altına ala bilər, o cümlədən, Cinsi Zorakılıq (CZ)[3] hallarının artması riski ilə nəticələnə bilər. Əsasən, maliyyələşdirilmə üçün rəqabət aparan milli qeyri-hökumət təşkilatları (QHT) tərəfindən layihələşdirilən CZ qarşı mövcud proqramlar hərtərəfli olmamaları və əlaqələndirilməmələri səbəbdən qəbul edilməmişlər.

BŞBIA-nin qiymətləndirmə rəyi bundan əvvəlki Reproduktiv Sağlamlıq Konsorsiumunun apardığı tədqiqatın nəticələrini əks edərək göstərir ki, 2001-ci ildə də Azərbaycanda «ailə-məişət zəminində zorakılıq, cinsi zorakılıq, fahişəlik və adam alveri halları mövcuddur… qaçqın və MK icmalarında hələ də … CZ problemini göstərən proqram tərtib olunmayıb»[4].

Azərbaycan Sovet Ittifaqının süqutundan və Qarabağ münaqişəsinin vurduğu zərbələrdən sonra bərpa olunduqca müəyyən sosial çatışmamazlıqların bərpa prosesi zamanı aradan qaldırılması və bunun bütün əhalinin həyatında təsiri olacağı aydın məsələdir. Göstərildiyi kimi, kifayət qədər diqqət yönəldilməsi ilə proqramlı yanaşmanın olmadığı sahə qadınlara qarşı törədilən zorakılıq aspektidir. Dünyada təqribən hər üç qadından biri öz həyatında ya döyülmüş, ya cinsi hücuma məruz qalmış və yaxud buna oxşar zorakılığa məruz qalmış olur[5] və, heç də təəccüblü deyil ki, Azərbaycan bu statistikadan sığortalanmamışdır. Bu yaxınlarda Azərbaycanda aparılmış və 7668 qadının cəlb olunduğu reproduktiv sağlamlıq sorğusunun nəticələrinə görə, öz həyatlarında onlara qarşı partnyorları və yaxud keçmiş

---

[1] Azərbaycan Respublikası, *Yoxsulluğun Azaldılması və Iqtisadi Inkişaf üzrə Dövlət Proqramı* , Bakı, 2003.
[2]USAID Azərbaycan, *USAID/Qafqaz/Azərbaycan üzrə Cinsi Qiymətləndirmə*, Bakı, 2004.
[3] *Ibid.*
[4] Vord, J, *Indi Deyilsə, Bəs Nə Vaxt: Qaçqın, Məcburi Köçkün və Münaqişədən Sonra Salınmış Icmalarda Cinsi Zorakılığın Aşkarlanması.* Reproduktiv Sağlamlıq Konsorsiumu, 2001.
[5] Amnesty International, *Qadınlara Qarşı Zorakılıq: Faktlar və Rəqəmlər – Xülasə,* 2004.

partnyorları tərəfdən törədilmiş sözlə kobudluq barədə hal-hazırda/əvvəllər ərdə olan qadınların 30%-i, fiziki zorakılıq barədə 20%-i və cinsi zorakılıq barədə isə 10%-i məlumat vermişdilər[6]. Digər tədqiqatlar oxşar nəticələri[7] göstərir və Azərbaycanlı MK qadınlar arasında keçirilmiş sorğulardan ən azı biri soruşulanlardan 30%-nin həyatlarında heç olmasa bir dəfə məcburi olaraq cinsi əlaqədə olmalarını aşkar etmişdir[8].

Qadınlara qarşı zorakılıq "zəmanəmizdə rast gəlinən ən rüsvayçı insan hüququnun pozuntusu" kimi adlandırılmışdır[9]. Əsasən fiziki bədən xəsarətləri ilə izah olunan bilavasitə zorakılığın qısa-müddətli nəticələrindən başqa, zorakılığa məruz qaldıqdan sonra qadınların keçirdikləri xroniki fiziki əmək qabiliyyətsizliyi, cinsi-çoxalma sağlamlığı ilə əlaqədar problemlər, cinsi yolla alınmış xəstəliklər, əqli sağlamlığın pozuntusu, intihar haqda fikirlərin və hərəkətlərin əmələ gəlməsi zorakılığın uzun müddətli nəticələrini təşkil edir. Ailədə zorakılığın təsirinə məruz qalmış uşaqların gələcəkdə bu cür zorakılığın qurbanları olması və ya onların öz intim həyatlarında bu cür zorakılığın törətməsi ehtimalı çox böyükdür. Qadınların cəmiyyətdə və dövlət idarəçiliyində bərabər qərarverici hüquqlarının məhdudiyyəti nəticəsində inkişafda olan cəmiyyətlər qadınların mədəni, ictimai, siyasi və iqtisadi sahələrdə verə biləcəkləri qiymətsiz töhfələrdən məhrum olunurlar. Qadınların rolunu inkar edən inkişafda olan cəmiyyətlər kişilərdən ibarət olan sivilizasiyalara çevrilir və, bununla da, gələcəkdə qadınların iştirakını minimallaşdırır və cəmiyyətin həyatında bütün insanların tam və bərabər iştirak etməsinə hər vasitə ilə maneə törədir. Bu faciəvi və təkrar olunan bir silsilə halını alır.

Bu silsilənin qırılması üçün atılan ilk addım kimi BXK təşkilatı Azərbaycanda qadınlara qarşı zorakılığın (QQZ) ümumi icmalına başlamışdır. Qiymətləndirmənin bir həssəsi Azərbaycanda qadınlar üçün həyata keçirilən mövcud profilaktik tədbirlərin və cavab xidmətlərinin təyin edilməsini diqqət mərkəzində saxlamaqla yanaşı, onun əsas funksiyası qadın benefisiarların və onların ailələrinin həyatında zorakılığın təsirini və dərəcəsini müəyyən etmək məqsədilə BXK təşkilatının hal hazırda layihələrini həyata keçirdiyi rayonların benefisiar əhalisindən ilkin dəqiq məlumatları toplamaqdır. Bu sənəddə əldə olunan nəticələr işıqlandırılır.

[6] USAID Azerbaijan/CDC, *Reproduktiv Sağlamlıq Sorğusu Azərbaycan, Son Hesabat*, Mart 2001.
[7] Pathfinder International, *Cinsi Sağlamlıq və Ailənin Planlaşdırılması Məsələlərinə Aid Olaraq Qaçqınların və MK-in Bilikləri, Münasibətləri və Təcrübələri,* Bakı, 2001.
[8] Kərimova C, Posner SF, Brown YT, Hillis S, et al. *Azərbaycanda məcburi köçkün qadınlar arasında zorla cinsi əlaqədə olma barədə verilən məlumatların geniş yayılması.* American Journal of Public Health. 2003; 93: 1067 – 1070.
[9] Amnesty International, *Qadınlara Qarşı Zorakılığa Son Qoyulsun Kampaniyası,* 2004.

## Metodologiya

Məlumatların toplanması üçün həm keyfiyyət, həm də kəmiyyət metodlarından istifadə olunmuşdur. Azərbaycanda cinsi mənsubiyyət və qadınlara qarşı zorakılıqla əlaqədar yazılı tədqiqatlara və sənədlərə aid ədəbiyyatın icmalı verilmişdir. Qiymətləndirmənin mövzusu üçün əhəmiyyət kəsb edən məsələlər barədə beynəlxalq və dövlət təşkilatlarında işləyən işçilərlə müsahibələr aparılmışdır. Mövzunun təqdimatı üzrə ssenarilərdən istifadə etməklə və, bunun ardınca, yarı-formal suallar verməklə və hər ssenari üçün cavab müddətini təyin etməklə qadın fokus qruplarının iclasları təşkil edilmişdir. Struktur sorğular həm kişi, həm də qadın respondentlər üçün təmin olunmuşdur.

Nəzərə alınmalıdır ki, bu qiymətləndirmə nə Azərbaycanda qadınlara qarşı zorakılığın epidemiologiyasına həsr olunmuş elmi tədqiqat əsəridir, nə də ki, nəticələrdə elmi statistik təhlilin tətbiqi nəzərdə tutulmamışdır. Fokus qrup müzakirələrinin və sorğuların nəticələri BXK təşkilatına gələcək layihə imkanlarını qiymətləndirməsi məqsədilə hal hazırda qadın zorakılığı insidentlərinə və, əsasən, BXK təşkilatının fəaliyyət göstərdiyi sahələrdə yaşayan və ixtiyari seçilən azərbaycanlı kişi və qadınların rəylərinə əsaslanan vacib keyfiyyətli və kəmiyyətli məlumatın təmin olunmasıdır. Lakin elmi məqsədlərindən asılı olmayaraq, bu tədqiqat benefisiar əhali tərəfindən zorakılıq barədə *hər hansı* məlumatın verilməsi vacibliyini azaltmır. BXK təşkilatının benefisiar əhalinin fokus qruplarında və ya sorğu prosesində könüllü açıqladıqları QQZ halları etibarlı sayılır və məsələyə proqramla yanaşılmasının vacibliyini tələb edir.

Bu vaxta qədər aparılmış qiymətləndirmə və fəaliyyətlərin xarakterini və həcmini müəyyənləşdirmək məqsədilə Azərbaycanda cinsi mənsubiyyət və QQZ haqqında müvafiq araşdırmalar və sənədlər toplanmış və nəzərdən keçirilmişdir. Əlavə olaraq, hazırki qiymətləndirmənin konteksti üçün tələb olunan və fokus qrupları və sorğular zamanı əldə olunan məlumatlarla müqayisə edilməsi nəzərdə tutulan statistik məlumatlar toplanmışdır.

"Cinsi mənsubiyyət" adlanan mövzunun daha geniş mənasına aid olaraq mövcud AD və QHT layihələrinin müxtəlifliyi və həcmləri barədə və sonradan mövzunun əhatəsini daraldaraq diqqətin xüsusilə QQZ aid proqramların üzərində mərkəzləşdirərək keyfiyyət məlumatlarının toplanması məqsədilə müsahibələr bir sıra QHT, BM Agentliklərinin və AD nümayəndələri ilə aparılmışdır. Müsahibəçilərdən gələcək layihə sahələrinin həcmləri və buna ehtiyacın olub-olmaması, həll olunmalı məsələlər və imkanlar, o cümlədən, özlərinin şəxsi layihə təcrübələrinə aid olaraq təəssüratları barədə suallar verilmişdir. Müsahibələr təmsil olunan təşkilatların növündən və birbaşa xidmətin təminatında cəlb olunma dərəcələrindən asılı olaraq şəxslər arasında müxtəlif qaydada aparılmışdır.

Fokus qrupların yerləri BXK təşkilatının seçilmiş müxtəlif icmalardakı iş təcrübəsinə və iclasların keçirilməsi üçün yığıncaqların təşkilat imkanlarına əsaslanaraq seçilmişdir. Seçilmiş icmalardan olan qadınlar qadın proqramlarına aid olan müzakirələrdə iştirak etmək üçün dəvət olunmuşdular. Icma və iştirakçıların seçilmə prosesi xarici ümumi əhəmiyyətlilik (Azərbaycan əhalisinin geniş kütləsi üçün ümumiləşdirilməsi) məqsədi üçün deyil, BXK təşkilatının hal hazırda fəaliyyət apardığı ərazidə cavab nümunələrinin təmin olunması üçün həyata keçirilmişdir. Gənc iştirakçıların öz fikirlərini sərbəst açıqlamalarını təmin etmək məqsədilə, ilkin olaraq, fokus qrup iştirakçılarının yaş həddinə görə ayrılmaları nəzərdə tutulmuşdu (18 – 34 və 35+). Lakin bunun təsəvvür olunması çətinlik törədirdi və bu da bir çox qrupların qarışıqlığı ilə nəticələndi. Bir yerdə qeyri-BXK şəhər benefisiarlarından ibarət iki fokus qrupu təşkil olundu. Bu iki qrup şəhər və kənd fokus qrupları arasında aşkar uyğunsuzluğun olub olmamasının müəyyənləşdirilməsini asanlaşdırmışdır. Bu qruplar DBMK təşkilatının olması və bu təşkilatla əməkdaşlığa əsaslanaraq seçilmişdilər.

Qadın fokus qrupları bir ingilisdilli qadının və bir ingilis- və azərbaycandilli qadının birgə əməkdaşlığı ilə aparılmışdır. Mövzuların daha dərin başa düşülməsi üçün qruplar istifadə olunan terminlərin tərifləri ilə təmin olunmuşdur. Fokus qrup müzakirələri təqdim olunan ssenarilərə və, bunun ardınca, sual və cavab müddətlərinə əsasən təşkil olunmuşdu. Suallar və cavablar sadə quruluşa malik olmaqla bərabər hər hansı mövzunun anketdə verilən suala aid olmayan hissəsinə əlavə məlumatın verilməsini təmin edir.

Fokus qrup müzakirələrindən sonra qadınlar azərbaycanlı aparıcının vasitəsilə azərbaycan dilində keçirilən struktur sorğularına dəvət olunmuşdular. Sorğuların məqsədi iştirakçıların cinsi mənsubiyyət haqqında rəyləri və onların hazırki/keçmiş həyatlarında baş verən zorakılıqlar haqqında verdikləri məlumatları toplamaq idi. Sorğularda iştirak edən qadınlar fokus qruplarına cəlb olunduqlarına görə onlara zorakılığın ifadəsi təkrarən verilməmişdi.

Təəssüf ki, təlim keçmiş kişi aparıcıların olmamasına görə kişilər üçün fokus qruplarının təşkili mümkün olmamışdır. Cinsi mənsubiyyət və zorakılıq barədə kişilərin rəyinə aid olan məlumatların toplanılması

üçün BXK təşkilatının hal hazırda fəaliyyət göstərdiyi on bir rayonda kişi aparıcının azərbaycan dilində apardığı kişi sorğuları həyata keçirilmişdir. Sorğu iştirakçıları BXK təşkilatının benefisiar əhalisindan ixtiyari olaraq seçilmişdilər. Kişi sorğu iştirakçılarına sorğudan əvvəl fokus qrupların yaradılması nəzərdə tutulmadığı üçün sorğu sualları iştirakçının şəxsi davranışına aid edilməmiş və ümumi xarakter daşıyırdı.

## Terminlər

Bu hesabatın məqsədlərinə uyğun olaraq, **qadınlara qarşı zorakılıq (QQZ)** aşağıdakı kimi ifadə olunmuşdur[10]:

> Qadına fiziki, cinsi və ya psixoloji zərərlə və ya əzabla nəticələnən və ya nəticələnməsi ehtimal edilən cinsi mənsubiyyətinə əsaslanan hər hansı zorakılıq hərəkəti, o cümlədən, ictimai və ya şəxsi həyatda baş verməsindən asılı olmayaraq bu cür hərəkətlərin törədilməsi təhlükəsi, zor gücünə və ya ixtiyari olaraq azadlıqdan məhrum etmə. Beləliklə, qadınlara qarşı zorakılıq, bunlarla məhdudlaşmayaraq, aşağıdakıları təşkil edir:
>
> a. Ailədə baş verən fiziki, cinsi və psixoloji zorakılıq, o cümlədən, döyülmə, ailədə qadın cinsli uşaqların cinsi təhqir olunması, cehizlə əlaqədar zorakılıq, ər-arvad zorlaması, qadın cinsiyyət üzvlərinə xəsarət yetirilməsi və qadın üçün zərərli olan digər ənənəvi əməllər, qeyri-nigah zorakılığı və istismar xarakterli zorakılıq;
>
> b. Ümumi cəmiyyətdə baş verən fiziki, cinsi və psixoloji zorakılıq, o cümlədən, zorlama, cinsi təhqirə məruz qalma, iş yerində, tədris müəssisələrində və digər yerlərdə cinsi hücumlara və hədə-qorxuya məruz qoyma, qadın alveri və məcburi fahişəliyə sövq etmə;
>
> c. Baş verdiyi yerdən asılı olmayaraq Dövlət tərəfindən törədilən və ya yol verilən fiziki, cinsi və psixoloji zorakılıq.

**Yaxın əlaqə zorakılığı (YƏZ)** həyat yoldaşına, keçmiş həyat yoldaşına, indiki və ya keçmiş kişi və ya qadın dostuna, və yaxud hal hazırda və ya əvvəllər görüşdüyü partnyora qarşı yönəldilmiş faktiki və ya hədə-qorxu gəlinən fiziki və ya cinsi zorakılıq və ya psixoloji və emosional təhqir kimi ifadə olunur[11].

---

[10] BMT. *Qadınlara Həsr Olunmuş Dördüncü Dünya Konfransı Haqqında Hesabat: Hərəkət Proqramı,* Pekin, 4-15 Sentyabr 1995.

[11] Saltzman LE, Fanslow JL, McMahon PM, Shelley GA. Intimate Partner Violence Surveillance: Uniform definitions and recommended data elements. Atlanta: National Center for Injury Prevention and Control; 1999.

## Azərbaycanda Qadınlar: Xülasə

Azərbaycanda yaşayan əhalinin ümumi sayı 8,016,200 nəfər təşkil edir[12]. Qadınlar ümumi əhalinin 51.1% qədərini təşkil edir[13], lakin bu demoqrafik qrup barədə statistik məlumat dəqiqləşdirilməlidir. Dövlət tərəfindən toplanan məlumatların çox hissəsi cinsi mənsubiyyətinə görə bölünməmişdir və xüsusi olaraq qadınlara və qadın məsələlərinə aid olan məlumatların tapılması çətindir. Buna baxmayaraq, Azərbaycanda yaşayan qadınlar barədə əldə olunmuş əsas məlumatlar aşağıda işıqlandırılmışdır.

Ümumiyyətlə, təhsil almaq üçün qadınlar və kişilər bərabər imkanlara malikdirlər və onların savad dərəcəsi təqribən bir-birinə yaxındır, lakin qadınlar “daha yumşaq” texniki məktəblərdə və universitet proqramlarında təhsil almalarına daha çox meyllidirlər və, kişilərdən fərqli olaraq, universitetdən sonra təhsillərini aspiranturada davam etdirməyə az meyllidirlər[14].

Qadınlar qeyri-kənd təsərrüfatında çalışan işçi qüvvəsinin 45%-ni təşkil edir[15]. Lakin işləyən qadınların çox hissəsi daha çox arzuolunan səhiyyə və təhsil sektorlarında işləməyə meyllidirlər ki, bu sahələrdə də əmək haqqı ənənəvi olaraq ümummilli orta aylıq əmək haqqı səviyyəsindən aşağıdır. Bundan başqa, qadınlar bir çox hallarda eyni işlərin yerinə yetirilməsinə görə kişilərlə müqayisədə 45% az qazanırlar[16]. Qəribə haldır ki, qadın ərə getdikdən sonra o, təhsil dərəcəsinə və ya ailəyə qazanc gətirə bilməsi imkanlarına baxmayaraq, öz həyat yoldaşının və həyat yoldaşının ailəsi tərəfindən evdə qalması barədə artan təzyiqlə üzləşir[17]. Bu məqamda qadınlar, adətən, işdən ayrılırlar. Hökumət nazirliklərində ancaq 2% vəzifələrə rəhbərlik etməklə və parlamentdə yerlərin yalnız 11%-ni tutmaqla qadınlar siyasət sahəsində çox az xüsusi çəkiyə malikdirlər[18].

Orta ömür müddəti 75,2 il olmaqla hər qadın həyatı boyu dünyaya təqribən 2,1 uşaq gətirir[19]. Orta doğuş göstəricilərinin bütün yaş qruplarında aşağı düşməsinə baxmayaraq, 15 – 19 yaş qrupundan olan qadınların doğuş göstəriciləri iki dəfə artmışdır. Doğuşlara nəzarət üçün ən çox istifadə olunan üsul süni abortdur. Abort göstəricilərinə aid olan dövlət statistik məlumatlarına görə hər 1000 nəfər qadına 7 abort düşür, lakin bu yaxınlarda aparılan tədqiqat nəticələrin daha çox, hər 1000 nəfər qadına 116 abort halının olmasını və ümumi əhalidə hər bir doğuşa təqribən 3 abortun düşməsini aşkar etmişdir[20]. 2003-cü ildə dövlət tərəfindən 100,245 doğuş qeydə alınmışdır, bunlardan 9275 doğuş tənha və ya nigah qeydiyyatında olmayan qadınların payına düşmüşdür[21].

---

[12] Azərbaycan Respublikası, *Yoxsulluğun Azaldılması və iqtisadi İnkişaf üzrə Dövlət Proqramı,* Bakı, 2003.
[13] *Ibid.*
[14] *Ibid.*
[15] *Ibid.*
[16] *Ibid*
[17] Fokus Grup müzakirələri 15Mart və 12 – 15 Aprel 2004
[18] UNDP, *Human Development Report,* 2003.
[19] *Ibid.*
[20] USAID Azerbaijan/CDC, *Reproduktiv Sağlamlıq Sorğusu, Azərbaycan, Bakı,* 2001.
[21] Ədliyyə Nazirliyi, Azərbaycan Dövləti

## Azərbaycanda qadınlara qarşı zorakılıq: Statistik məlumatlar

Azərbaycanda qadınlara aid sistematik məlumatların toplanılması AD tərəfindən yerinə yetirilmədiyindən spesifik qadın məsələlərinə və qayğılarına həsr olunmuş, xüsusilə də, qadınlara qarşı zorakılıq haqqında məlumatların əldə olunması çətinlik təşkil etmişdir. Qadınlara və qadın məsələlərinə və qayğılarına həsr olunmuş konkret məlumatların əldə olunmasının çətinliyi bu mövzuların açıq ictimai müzakirəsi zamanı müəyyən utancaqlıq və sıxıntı hisslərinin baş verməsi nəticəsində daha da ağırlaşmışdır. Cinsi və reproduktiv sağlamlıq və qadınlara qarşı zorakılıq (fiziki, cinsi və ya psixoloji) düzgün başa düşülməmişdir, bu barədə açıq danışılmır və qarışıq cinsli qruplarda bu barədə heç zaman söhbət edilmir. Bu məsələlərə yanaşma qaydası, adətən, özünü qadınların cinsi sağlamlığı barədə bilməməzliyə qoyma və Azərbaycanda qadınlara qarşı zorakılığın baş verməməsini yalandan söylənilməsidir. Faktiki olaraq, heç zaman zorakılığa məruz qalmamış və ya qadınlara qarşı zorakılıq haqqında məlumat almamış bir çox Azərbaycanlı qadınlar da bu halın Azərbaycanda baş verməsinin qeyri-mümkün olmasına əmindirlər.bütün bunlar sonradan hadisələr barədə məlumat verilməsinə və dəqiq statistikanın toplanılmasına maneə yaradır.

Bütün bunlara baxmayaraq, dövlət sektorundan kənarda aparılmış bir sıra tədqiqatlar nəticəsində qadınlara qarşı zorakılıq məsələlərinə aid qlobal statistik məlumatlarla müqayisə oluna biləcək keyfiyyətli kifayət qədər əhəmiyyətli və dəqiq məlumatlar toplanmışdır. BŞBIA/XNPM 2001-ci ildə apardığı tədqiqat göstərmişdir ki, yaxın əlaqə zorakılığına aid olaraq 7668 qadın respondentlərdən 30%-i sözlə təhqir, 20%-i fiziki təhqir və 10%-i cinsi təhqir halları barədə məlumat vermişdilər. Pathfinder International təşkilatının apardığı tədqiqatın nəticələrinə görə 178 qadın respondentlərdən 28%-i sorğunun aparıldığı vaxtdan bir ay əvvəl öz həyat yoldaşları və ya partnyorları tərəfindən vurulan fiziki zorakılığın qurbanı olmuşlar və bu respondentlərin 5%-i həmin ayda zorakılığın 5 dəfədən çox baş verdiyini xəbər vermişdilər.

Beynəlxalq QHT olan Symmetry təşkilatının apardığı iki sorğu aşkar etmişdir ki, qadın respondentlərin təqribən 45%-i zorakılığa məruz qalmış və bunlardan 59%-i ailədə baş vermiş zorakılıq hadisələri və 36% zorakılıq hadisələrinin həyat yoldaşları tərəfindən törədilməsi barədə məlumat vermişdilər[22]. Symmetry təşkilatının tədqiqat materiallarında göstərilən digər zorakılıq etmiş şəxslər qardaşlar, valideynlər və ərin qohumlarıdır.

Azərbaycanda psixoloji, fiziki və cinsi zorakılıqlar hallarının baş verməsini göstərən statistik məlumatların nəticələrinə baxmayaraq, qadınların bu hadisələr haqqında məlumat verməsi ehtimalı çox azdır. Zorakılıq şəraitində yaşayan qadınların əksəriyyəti ailədaxili zorakılıq hallarını "normal" hesab edir və kömək üçün müraciət etmə imkanı barədə düşünmürlər. Ictimai rüsvayçılıq, utanma, qovulma qorxusu və ərindən və ya onun ailəsindən iqtisadi asılılıq da, həmçinin, qadınların məlumat verə bilmə imkanlarının dərk etmələrini kəskin surətdə məhdudlaşdırır. Araşdırmalardan biri göstərmişdir ki, yaxın partnyorlarının təhqirlərinə məruz qalmış qadınlardan yalnız 1%-i hadisə barədə polisə və ya səhiyyə müəssisəsinə müraciət etmiş və 1%-dən az qədəri hüquqi yardım almaq üçün müvafiq orqanlara məlumat vermişdir[23].

Zorakılıq hadisələri barədə Ədliyyə Nazirliyinə məlumatların az verilməsi də vəziyyətin dəyişməsinə mane olur. 2002-ci ildə qadınlara qarşı zorakılıq hallarına aid olaraq 317 hadisə qeydə alındığı halda, 2003-cü ildə bu rəqəm 289-a bərabər olmuşdur[24]. 2000-ci ildə Azərbaycanda cəmi 39 zorlama hadisəsi qeydə alınmuş və 2003-cü ildə bu hadisələrin sayı 46-a bərabər olmuşdur[25]. Polis tərəfindən müdafiə və köməyin təmin olunmaması, tibb sahəsində və hüquqi müdafiə prosesində ciddi problemlərin mövcudluğu qadınların məlumat vermə imkanlarına maneçilik törədir. Bütün bu deyilənlər zorakılığın normal olmasına inanmaqla və rüsvayçılıq və qovulma qorxusu ilə birgə qadınların zorakılıq barədə məlumat vermələrini az qala heçə endirir.

Azərbaycanda adam alveri məsələsinə diqqət bu yaxınlarda ABŞ Dövlətinin maliyyə dəstəyindən və siyasi təzyiqindən və, həmçinin, beynəlxalq təşkilatlar bu məsələni diqqət mərkəzinə çəkdikdən sonra artmışdır (MBT və ATƏT insan alverinə qarşı Dövlət Fəaliyyət Planı üzərində AD ilə birgə sıx əməkdaşlıq edirlər). Bunun nəticəsi olaraq, Azərbaycanda qadınların hüquqları ümumi müstəvidə diqqət mərkəzinə qoyulmuşdur. Lakin diqqət, əsas etibarilə, insan alveri adlanan yeni "qaynar mövzunun" üzərində cəmləşərək, bir o qədər də dünyəvi sayılmayan "adi və maraqsız ailə zorakılığı" mövzusu arxa plana çəkilmişdir. Əlavə olaraq, qeyd olunmuşdur ki (təsdiq olunmamışdır), əvvəllər sırf qadın məsələləri üzrə layihə fəaliyyətlərini aparan milli QHT-

[22] Symmetry, *Qadınların, kişilərin,uşaqların nəzərində zorakılıq: Xüsusi Sorğunun Nəticələri, Bakı,* 2000.
[23] USAID Azerbaijan/CDC, *Reproduktiv Sağlamlıq Sorğusu, Azərbaycan, Bakı,*2001.
[24] Ədliyyə Nazirliyi, Azərbaycan Dövləti
[25] *Ibid.*

lər insan alverinə qarşı Dövlət Fəaliyyət Planının həyata keçirilməsinə görə vəd olunan maliyyə yardımını almaq məqsədilə insan alverinin qarşısının alınması üzrə fəaliyyətə qoşulmuşlar.

## Mövcud Cavab və Xidmət Təminatı

## Qadınlara Qarşı Zorakılığa Dövlətin Cavab Tədbirləri

Azərbaycanda QQZ hallarının üzə çıxarılması istiqamətində AD ilk addımlarını atmışdır. Lakin həyata keçirilmiş bu tədbirlərin təsirini qadınların əksər hissəsi hələ tam olaraq hiss etməmişlər. Sovet Ittifaqı dağıldıqdan sonra qadınların sosial müdafiəsinə yönəlmiş proqramların həyata keçirilməsi dayandırılmışdı. Xidmət və müdafiə sistemində yaranmış boşluğu doldurmaq məqsədilə qadın məsələlərinə istiqamətlənmiş müxtəlif QHT-ları yaranmağa başladı. Dövlət tərəfindən dəstəyin olmaması bu təşkilatların bir çoxunun nisbətən kiçik miqyaslı və lokallaşdırılmış layihələr çərçivəsində işləmələri ilə nəticələndi.

Buna baxmayaraq, AD diqqətin tədricən qadınlara tərəf yönəldilməsinə başlamışdır. Son bir neçə ildə bu istiqamətdə bir neçə addım atılmışdır. 1995-ci ildə *Qadınlara qarşı bütün növ Diskriminasiyaların Aradan Qaldırılması haqqında Konvensiya* qəbul olunmuşdur. 1998-ci ildə Qadın Məsələləri üzrə Dövlət Komitəsi yaradılmış və 2000-ci ildə ölkə Prezidenti *Azərbaycanda Qadın Məsələləri üzrə Dövlət Siyasətinin Həyata Keçirilməsi Haqqında* Fərmanı imzalamışdır. Bu yaxınlarda qəbul edilmiş*Yoxsulluğun Azaldılması və Iqtisadi Inkişaf üzrə Dövlət Proqramında* (YAIIDP) qadınların müdafiəsinə aid olaraq həyata keçirilməli olan tədbirlərdən və göstəricilərdən bəhs edən kiçik bölmə daxil edilmişdir[26].

Bu sənədlər göstərir ki, AD digər fəaliyyət növləri ilə birgə qadın məsələlərinə aid informasiyanın yayılmasını təmin edəcəkdir; ailədə zorakılığa məruz qalmış qadınlar tibbi, hüquqi və psixoloji yardım və məsləhət alacaqlar; və qızların və gənc qadınların müdafiəsinə yönəlmiş layihələrin həyata keçirilməsinə başlanacaqdır. Bu sənədlərdə qeyd olunur ki, AD-nin bu sahədə həyata keçirdiyi fəaliyyəti böyük ehtimalla Birləşmiş Millətlər təşkilatlarının və QHT-nın qarşılıqlı fəaliyyətləri ilə lazımi dəstək veriləcəkdir.

Yaxşı məramın olmasına baxmayaraq, hələ ki, qadın məsələlərinə aid olaraq bir çox dövlət tədbirlərinin ancaq sözdə qalması təhlükəsi keçib getməmişdir. Azərbaycanın Qadınlara qarşı Diskriminasiyanın Aradan Qaldırılması üzrə Birləşmiş Millətlər Komitəsinə təqdim etdiyi Uzv Dövlətlərin ilkin hesabatına cavab olaraq, Komitə «qadınların de-yure və de-fakto bərabərliyi arasında uyğunsuzluqların olması» və «qadınlara qarşı zorakılığın qiymətləndirilməsi və ona qarşı mübarizə üçün səylərin qeyri-qənaətbəxş olması» barədə AD-nə narahatçılığını bildirmişdi[27]. Komitə cinsi xəbərdarlıq fəaliyyətini inkişaf etdirmək və zorakılığın profilaktikasını və cavab tədbirləri proqramlarını həyata keçirmək məqsədilə QHT-larla sıx əməkdaşlıq edilməsini məsləhət görmüşdü.

Aşağıda mümkün olan qarşısı alınmanın və cavab tədbirlərinin spesifik sahələri və bunların hər birinə AD-nin cəlb olunması işıqlandırılmışdır. Nəzərə alınmalıdır ki, burada AD-nin həyata keçirdiyi təşəbbüslər də mövcud ola bilər, lakin hal hazırda onlar hələ müəyyənləşdirilməmişdir.

### Xəbərdarlıq Kampaniyaları

AD-nin hal hazırda QQZ qarşısını almaq üçün dövlət xidmətləri barədə məlumatlandırma kampaniyalarını fəal təbliğ etməsi baş vermir. Bu məsələyə aid olaraq AD tərəfindən bir çox sənədlərin və qanunların təmin olunmasına baxmayaraq, bu barədə məlumat geniş əhali kütləsinin diqqətinə yaxşı yayılmamışdır.

### Tədqiqat

Xüsusi olaraq QQZ sahəsində dövlət tərəfindən aparılmış tədqiqat ya əldə olunmamış, ya da ki, bu cür tədqiqat həyata keçirilməmişdir. Əlavə olaraq, Azərbaycanda qadınların statusu haqqında statistik məlumatlar, əsasən, demoqrafik xarakter daşıyır və mahiyyətsizdir. AD BŞBIA Azərbaycan/XNPM tərəfindən keçirilən *Reproduktiv Sağlamlıq Sorğusunu Azərbaycan* imzalamışdır ki, burada da QQZ barədə bölmə vardır, lakin onun öz tədqiqatlarını aparması nəzərə çarpmır.

### Mühafizə, Hüquqi Yardım və Ədliyyə

[26] Təəssüflə qeyd etmək lazımdır ki, bu yaxındarda buraxılmış YAIIDP-nın illik hesabatında qadınlara qarşı zorakılıq göstərilməyib və cinsi mənsubiyyət məsələləri qadınların təhsilalma imkanlarından və siyasi işlərə götürülməsindən başqa digər vacib məsələlərə toxunulmayıb. Azərbaycan Respublikası, *Yoxsulluğun Azaldılması və Iqtisadi Inkişaf üzrə Dövlət Proqramı üzrə Illik Hesabat – 2003: Azerbaijan Progresses toward the achievement of the MDGs*, Bakı, 2004.

[27] Qadınlara qarşı Diskriminasiyanın Aradan Qaldırılması üzrə Birləşmiş Millətlər Komitəsi, *Üzv Dövlətlərin Hesabatlarının Araşdırılması: Azərbaycanın Ilkin Hesabatı (1 Sentyabr 1996)*, 1998.

Zorakılığın qurbanları üçün AD tərəfindən təşkil olunmuş xidmətlər mühafizə və ədalət məhkəməsinin təmin olunması üçün pis təchiz olunmuşlar. Polis qüvvəsi qadınlara qarşı zorakılıq üzrə təlim səviyyəsi aşağı dərəcədədir və bu mövzu dövlət tədris planına daxil edilməmişdir. Bu sahə üzrə yeganə təlim kursları QHT və BM təşkilatları tərəfindən keçirilmişdir və bu da on minlərlə polis nəfərindən cəmi bir neçə yüz polis nəfərinə şamil olunmuşdur. Polis, adətən, zorakılıqdan qurtarmış qadınlar müraciət etdikdə lazımi köməyi və mühafizəni təmin edə bilmir. Bundan başqa, qadınların müdafiəsi üçün mövcud hüquq normaları ilə qadınlara qarşı zorakılıq, xüsusilə, ailə zorakılığı cinayətinin cəzalandırılması arasında boşluqlar qalmaqdadır. Qanunların çox hissəsi xüsusi demoqrafik qrup kimi hamilə qadınları ümumi qadınlara qarşı qoyaraq, ancaq onlara aid olunub. Təəssüf ki, QQZ hallarına aid olaraq polisə məlumat verilən hadisələrin istintaq aparılmış hadisələrlə müqayisəsini göstərən statistik məlumatlar hal hazırda yoxdur. Lakin ümumiyyətlə belə bir fikir mövcuddur ki, qadınlar dövləti polis və ya hüquq-məhkəmə sistemi vasitəsilə mühafizə və ya hüquqi yardım təminatçısı kimi qəbul etmirlər.

Ədalətin axtarılmasına ən böyük maneə odur ki, kiçik bədən xəsarətləri ilə nəticələnən ailə zorakılığı cinayətləri yerli özünüidarə orqanları səviyyəsində istintaq edilir. Bu zaman rayon mərkəzində yerləşən məhkəmədə istintaqın məxfiliyinə heç bir zəmanət verilmir və məhkəmənin verdiyi cəza cinayəti törədənin kiçik məbləğdə cərimə verməsi barədə hökm çıxarmasından başqa cəzanı nəzərdə tutmur. Cərimənin ödənilməməsi günahkar şəxsin həbs müddətini keçməsi ilə nəticələnir, lakin bu prosesin kiçik təhqirlərə məruz qalmış qadın tərəfindən tələb olunması barədə hadisələr məlum deyil.

### Tibbi Yardım

AD-də səhiyyə xidmətləri iri şəhərlərdə və rayon qəsəbələrində dövlət xəstəxanaları vasitəsilə həyata keçirilir. Lakin tibb işçilərinin əksəriyyəti qadına qarşı zorakılıq hallarında necə rəftar etmək haqqında təlim keçməmişlər, ailə zorakılığının izləri olan qadınla söhbətin necə aparılmasını bilmirlər və zorakılığın ilkin diaqnozunu vermə qaydasını və zorakılığın qarşısı alınmasının ilkin mərhələsində ailəyə yardım etmə bacarığına malik deyillər. Bundan başqa, dövlət xəstəxanalarında işləyən tibb işçiləri qanunun tələbinə uyğun olaraq (Daxili Işlər və Səhiyyə Nazirlikləri arasında bağlanmış müqaviləyə əsasən), xəstəxanaya daxil olmuş hər hansı şübhəli xəsarət haqqında polisə xəbər verməlidirlər və bu da dövlət səhiyyə müəssisələrinə anonim müraciətlərin edilməsini faktiki olaraq qeyri-mümkün edir. Həkimlərin Sovet vaxtından qalmış bu qanuna əməl edib-etməmələri bizə aşkar deyil, lakin həkimin bu qaydaya əməl etməməsi onun işini itirməsi ilə nəticələnə bilər. Bu qayda qadının təhqir və ya zorakılıq hadisəsi barədə öz həkiminə səmimi məlumat verməsinə mane olur. Bundan əlavə, kiçik kəndlərdə yaşayan qadınlar hətta onlar zorakılıqdan alınmış xəsarətlərə görə tibbi yardım almaq istəsələr də, onların səhiyyə ocaqlarına çatması müşkül məsələdir.

BMTƏF təşkilatının maliyyə köməyi və xəttilə Səhiyyə Nazirliyi tərəfindən Cinsi Sağlamlıq və Ailənin Planlaşdırılması üzrə Dövlət Idarəsi yaradılmışdır, lakin bu idarənin qadınlara qarşı zorakılıq hallarının müxtəlif formalarını tədqiq edib-etməməsi barədə bizdə məlumat yoxdur. Bundan əlavə, BMTƏF təşkilatının ardıcıl təsiri və maliyyə yardımı dayandırıldığı halda bu idarənin əvvəl-axır bağlanacağı təhlükəsi vardır. AD tərkibində heç bir başqa idarə qadınların sağlamlıq problemləri ilə məşğul olmur.

### Psixoloji Yardım

QQZ hallarına cavab tədbiri kimi AD tərəfindən hal-hazırda heç bir psixoloji-sosial xidmətləri yaradılmamışdır.

## Dövlət Cavab Tədbirləri – Nəticə

Qadınlara qarşı zorakılıqla mübarizə üçün AD-nin spesifik fəaliyyət planı olmasına baxmayaraq, bu "problem" mütəmadi olaraq ya mövcud olmadığı, ya da ki, şərəf ləkələyən məsələ kimi baxıldığına görə bilavasitə QQZ məsələsinə yönələn proqramların, xüsusilə də rayon yerlərində, məhz yerli özünüidarə orqanları işçiləri tərəfindən müqavimətlə qarşılanacağından ehtiyat etməyə əsas var. Dövlət tərəfindən tam dəstəklənməyən proqramların həyata keçirildiyi zaman ortaya çıxan problemlər bu proqramların yerinə yetirilməsinin mümkünsüzlüyü, cəmiyyət tərəfindən dəstək verilməməsi və təhlükə ilə sonuclana bilər.

AD-nin cavab tədbirlərində çox çatışmamazlıqlar vardır. Buna baxmayaraq, bu məsələ üzrə AD-nin götürdüyü öhdəliklərə görə məsuliyyətini əsas tutaraq və AD-nin öz sənədlərini stimul kimi istifadə edərək, QQZ qarşısının alınması və cavab tədbirləri məsələsinin bütün sahələrində AD ilə əməkdaşlıq etmək üçün təşkilatların xeyli imkanları vardır, o cümlədən: zorakılığın qurbanları üçün dövlət səhiyyə təminatı,

dövlət orqanlarına zorakılıq barədə məlumat vermiş qadınların təhlükəsizliyini və mühafizəsini təmin etmə, psixoloji-sosial yardım, və hüquqi islahatlar. Əlavə olaraq, təşkilatlar AD ilə əməkdaşlıq edərək əhalini həm QQZ məsələləri barədə, həm də AD-nin bu məsələnin aradan qaldırılması üçün gördüyü işləri barədə məlumatlandıra bilərlər.

## Qadınlara Qarşı Zorakılığa Qeyri-Hökumət Təşkilatının Cavab Tədbirləri

Qadın məsələlərinin AD orqanlarından alınması ilə bu sahəyə olan diqqətin məlum çatışmamazlıqlarına görə 1990-cı ildən ölkədə qadın məsələlərinə diqqət yönəldən bir çox QHT-rı (əsasən milli) yaranmağa başladı. 2000-ci ildə qadın məsələləri ilə məşğul olan 44 milli QHT rəsmi olaraq dövlət qeydiyyatından keçdi[28]. QQZ qarşısını alma sahəsində fəaliyyət göstərən bir çox təşkilatlar tədqiqat və ya xəbərdarlığın artırılması kampaniyalarına cəlb olunmuşdular. Onlardan az hissəsi zorakılıqdan yaxa qurtaranları birbaşa təsirli xidmətlərlə təmin edirdi. Təşəbbüslər rayonlarda heç bir konkret qarşısı alınma və cavab tədbirləri üzrə fəaliyyət yaratmamaqla, əsasən, Bakı şəhərinin hüdudları ilə məhdudlaşırdı. “Azad Qadın” adlı cəmi bir qadın təşkilatı Imişli rayonunda müəyyən işlər aparmışdı, lakin onun fəaliyyəti aşkar olaraq QQZ məsələsinə yönəlməmişdi.

Təəssüf ki, qeyd etmək vacibdir ki, bəzi milli QHT-nın məqsədləri heç də həmişə aydın deyildi. Bir çox “qadın QHT-nın” iqtidar və ya müxalifətin tərəfində durmaqla siyasi planların həyata keçirilməsi üçün istifadə olunması halları məlumdur. Həmçinin, bir çox qadınların siyasətə qoşulmaq üçün QHT forumlarında iştirak etmələrinin vacib olmasını düşünməsi və bəzi QHT-nın siyasi oyuncaqdan başqa bir şey olmadıqlarına görə tənqidə məruz qalmaları da məlum hallardır. Bu beynəlxalq QHT üçün qeyri-partizan milli parnyorların seçilməsində çətinlik yaradır və, həmçinin, müxtəlif siyasi görüşlərə malik olan QHT ilə əməkdaşlıq etməsinə mane olur. Siyasi məramlarından asılı olmayaraq, fəaliyyətlərində QQZ məsələsini diqqət mərkəzinə çəkilməsi məqsədini qoyan bir neçə milli QHT mövcuddur.

Bir çox milli və beynəlxalq təşkilatların müxtəlif qadın məsələlərinin ümumi şəkildə irəli çəkilməsi istiqamətində gördükləri işlərə baxmayaraq, aşağıda QQZ hallarına qarşı mübarizəyə xas olan ən son və vacib tədbirlər işıqlandırılmışdır.

### Tədqiqat

QQZ məsələsinə aid olaraq bir sıra təşkilatlar, o cümlədən, Symmetry, Köçkünlərə Hüquqi Yardım Mərkəzi, Pathfinder International və Azərbaycan Sosiologiya Assosiasiyası tərəfiindən yüksək keyfiyyətli keyfiyyət və kəmiyyət tədqiqatları həyata keçirilmişdir. Qadınların problemlərinə həsr olunmuş məlumatları toplayan digər təşkilatlar, o cümlədən, Clean World və D. Əliyeva adına Qadın Hüquqlarının Qorunması Assosiasiyası, məlumatların geniş ictimaiyyətə yayımı məqsədini daşıyırdılar. Clean World təşkilatının qadınlara qarşı zorakılıq haqqında mətbuatdan topladığı məqalələr daxil edilmiş məlumat bülleteninin daha geniş yayım siyahısına malik olduğu hesab olunur. Lakin bu tədqiqatın və məlumatların nə dərəcədə geniş yayılması və ya daha geniş istimaiyyətlə çatdırılması, və yaxud onların donor maliyyələşdirilməsinə və ya dövlət qadın proqramları və ya xidmətləri üzrə dövlətin siyasətinə təsir etmək üçün istifadə olunub olunmaması bəlli deyil.

BŞBIA Azərbaycan/XNPM *Reproduktiv Sağlamlıq Sorğusu* bu vaxta qədər aparılan ən hərtərəfli və geniş tədqiqat hesab olunur. Bu sorğu ən çox iştirakçı sayına malikdir və onun nəticələri bütün əhalini əks etdirir. Yeri gəlmişkən, bu sorğu və onun nəticələri AD tərəfindən qəbul olunmuş və təsdiqlənmişdir.

### Xəbərdarlıq Kampaniyaları

Müxtəlif QHT-rı tərəfindən ayrı ayrı vaxtlarda kütləvi informasiya vasitələri təşəbbüsü həyata keçirilmişdir. Azərbaycanın Gənc Hüquqşünaslar Assosiasiyası rus dilində çıxan qəzetlərin birində “Femina” adlı qoşmasını çap etdirmişdi və burada qadınların qanuni hüquqları daxil olmaqla qadınlar barədə məlumatlar verilirdi. Bu nəşrin davam etdirilməsi maliyyə çətinliyinə görə dayandırılmışdır. Yaxın zamanlarda yeni maliyyə mənbəyi tapılmış və bu təşəbbüsün tezliklə yenidən başlanması gözlənilir. Bir televiziya proqramı, “Ailələr və Inam”, Azərbaycanda müntəzəm olaraq yayımlanırdı və benefisiarlardan az miqdarı bu proqramı gördüklərini qeyd etmişdilər. Symmetry təşkilatı selektiv məcburi abortlara qarşı kampaniyada “Mən sənə yeddi oğul və bir qız arzulayıram” adlı filmin çəkilişini təşkil etmişdi. Bu yaxınlarda Psixoloji Məsləhətlər Mərkəzi həyat yoldaşının təhqirlərinə və zorakılığa həsr olunmuş və yaxın aylarda televiziyada yayımlanacaq televiziya kampaniyasını yaratmışdır. BŞBIA fondunun xəttilə World Learning, Catholic Relief Services və Internews təşkilatları ailə zorakılığı və erkən nigah haqqında

[28] Birləşmiş Millətlər Təşkilatının Inkişaf Proqramı, *Azərbaycan Respublikasında Qadınların Statusu Haqqında Hesabat*, Bakı, 2000.

xəbərlər və digər qadın məsələlərinə yönəldilmiş problemlər daxil edilən ictimai xidmətlər haqqında elan kampaniyasını həyata keçirirlər.

Ümumiyyətlə, xəbərdarlığın artırılması kampaniyalarında digər təşəbbüslərlə müqayisədə mövzunun daha çox diqqət altına qoyulması müşahidə edilmişdir, lakin bunların ümumi əhatəsi və ya həcmi barədə və yaxud əhali arasında nə dərəcədə qəbul edilib öyrənilməsi haqda məlumat yoxdur. Bircə bu məlumdur ki, rayonlarda yaşayan qadınlar bu cür məlumat kampaniyaları barədə çox nadir hallarda məlumatlı olurdular və qadınlara qarşı zorakılığa aid olaraq nəyi gördüklərini və ya eşitdiklərini soruşduqda onlar bu kampaniyalar barədə heç nə demirdilər[29].

Açıq Cəmiyyət Institutu – Soros Fondu kütləvi informasiya və xəbərdarlıq kampaniyalarını keçirən milli QHT-nın əsas donoru olmuşdur. Bu cür fəaliyyətin onlar tərəfdən gələcəkdə də maliyyələşdirilməsinə davam ediləcəyi nəzərdə tutulur.

## Hüquqi Yardım və Ədliyyə

Birbaşa vəkilə müraciət etməklə yanaşı, məxfi hüquqi yardım almaq üçün iki ən çox istifadə oluna bilən xidmətlər Azərbaycanın Gənc Hüquqşünaslar Assosiasiyası və Qadınların Böhran Mərkəzi vasitəsilə həyata keçirilir. Qadınlara məsləhətlər verilməsi üçün hər iki təşkilatın qaynar telefon xəttləri və hüquq məsləhətçiləri vardır. Qadınların faktiki olaraq bu xidmətlərdən istifadə etməmələri təəssüf hissi doğursa da, iki il yarım müddət ərzində məsləhət üçün Qadınların Böhran Mərkəzinin hüquqşünasına 973 qadın müraciət etmişdir. Təəssüf ki, Qadınların Böhran Mərkəzinin hüquqşünası öz müştəriləri adından məhkəməyə ərizə ilə müraciət etmək hüququna malik deyil. Alternativ olaraq, Köçkünlərə Hüquqi Yardım Mərkəzi, xüsusi olaraq bunun icra olunması nəzərdə tutulmamasına baxmayaraq, zorakılığa məruz qalmış qadınlara hüquq-məhkəmə yardımını təmin etmişdir.

Bu günlərdə *xüsusi olaraq* zorakılığın qurbanı olmuş qadınlara asan əldə olunan, təsirli və vəsait imkanlarına görə mümkün ola bilən və eyni zamanda göstərişlərin, məsləhətlərin və sonradan məhkəmə prosesi vasitəsilə hüquqi dayaqın verilməsini təmin edən hüquqi xidmət təminatlarına ehtiyac vardır.

## Təhlükəsizlik və Mühafizə

Əsasən Symmetry və BMTƏF təşkilatları tərəfindən təmin olunmaqla, son bir neçə il ərzində polisin təlim keçməsindən ötrü qeyri ardıcıl təlim kursları həyata keçirilmişdir. Lakin nisbətən az miqdarda polis nəfərlərinin təlim keçməsi və QQZ hallarına aid olaraq rəftar və təcrübə qaydalarında dəyişikliyin çox az seçilməsi nəticəsi real vəziyyəti əks etdirir. Yaxın gələcəkdə daha çox təlim təşəbbüslərinin həyata keçirilməsi planlaşdırılmışdır, lakin bunlar ümumi olaraq QQZ məsələlərindən daha çox adam alveri məsələlərinə aid olunacaqdır.

Zorakılıq şəraitindən yaxa qurtarmaq istəyən qadınların mühafizəsini təmin edən müvafiq daldalanacaq yerləri Azərbaycanın heç bir yerində yoxdur.

## Tibbi Yardım

Qadınların Böhran Mərkəzi işçi ştatında olan ginekoloqun vasitəsilə müraciət edən qadınlara mərkəzdə ixtisaslı ginekoloji xidmətlərin təklif olunması cəhdini etmişdir. Təəssüf ki, həkimin bu mərkəzdə qadınlara xidmət göstərməsinə icazə verən lisenziyası yoxdur və o, xidmət göstərilməsi üçün qadınları işlədiyi xəstəxanaya ünvanlayır. Iki il yarım müddət ərzində həkim tərəfindən 1006 nəfər qadın müayinə edilmişdir və bunlardan 48-i zorlama hadisələrinin qurbanları olmuşlar. Qadınların Böhran Mərkəzindən başqa QQZ hallarının qurbanları olmuş qadınlara birbaşa olaraq tibbi xidmətlərin göstərilməsi üçün yaradılmış və ya xüsusi təlim keçmiş həkimləri olan digər QHT mövcud deyil.

Qanuna uyğun olaraq polisə xəbər verilməsi tələbinin olması ilə əlaqədar dövlət xəstəxanalarına müraciət edən qadınların anonim məsləhətlər almalarına etibar etməməsi barədə müəyyən narahatçılıq vardır. Buna baxmayaraq, belə bir fikir vardır ki, zorakılıq qurbanlarına xidmət göstərilməsi üçün QHT tibb işçilərini işə cəlb edərsə və onları dövlətin yox, təşkilatın xətti ilə mükafatlandırarsa, bu zaman onların polisə xəbər verməələrinə ehtiyac yox ola bilər. Bu halda qurbanların anonimliyi proqramın parametrləri vasitəsilə qorunardı[30]. Bu imkan nə qədər cəlbedici olsa da AD qanunvericiliyinə riayət olunmaması üçün

[29] Fokus qrup müzakirələri 15 mart və 12 – 15 aprel 2004
[30] Köçkünlərə Hüquqi Yardım Mərkəzinin Direktoru Əlövsət Əliyevlə görüş, 26 aprel 2004

narahatçılıq doğurur və alternativ kimi istifadə olunmasından qabaq daha çox nəzərdən keçirilməsini tələb edəcəkdir. Hal hazırda bu alternativin heç bir QHT tərəfindən istifadə olunması faktı nəzəri cəlb etmir.

### Psixoloji Yardım

Qadınlara qarşı zorakılıq hadisələrinin qurbanlarına birbaşa psixoloji yardım xidmətlərini təklif edən çox az təşkilatlar mövcuddur və bu xidmətləri təmin edənlərin çoxunun ixtisası, təcrübəsi və ya səlahiyyəti barədə məlumat yoxdur. Lakin məlum olmuşdur ki, bu xidmətlərin alınması mümkün olarsa, qadınlar bu imkandan istifadə edəcəklər. Qadınların Böhran Mərkəzinin işçi ştatında psixoloq fəaliyyət göstərir və o, iki il yarım müddət ərzində 1154 nəfər qadını qəbul etmişdir. Şikayətlərin əksər hissəsi (dumanlı olsa da) "ərlə olan problemlər" (583), "zorlanmanın nəticələri" (53) və "intim problemlər" (179) barədə idi. Yenicə açılmış[31] Psixoloji Məsləhətlər Mərkəzi kişilərə, qadınlara və uşaqlara birbaşa müştəri xidmətlərini təklif edəcək və, həmçinin, qadınlara tibbi və hüquqi xidmətlərin alınması üçün məsləhətlər verəcəkdir.

Azərbaycanda, ümumiyyətlə, ixtisaslı və təlim keçmiş psixoloji xidmətləri təmin edənlər yox dərəcəsindədir və, faktiki olaraq, rayonlarda heç yoxdur. Ölkədə bir çox psixoloqların və sosial xidmət işçilərinin olmasına baxmayaraq, bu şəxslər öz təlimlərini bir çox illər əvvəl almış və indiki sosial iş təcrübəsinə uyğun olaraq müasirləşdirilməmişlər, xüsusən, zorakılığın qurbanı olmuş qadınların spesifik tələblərinə uyğun olaraq. Lakin yuxarıda sadalanan iki növ xidmət kimi bu cür xidmətlərin alınması mümkün olsa da, qadınların bu barədə xəbərləri yoxdur və onları necə əldə etmək yolunu bilmirlər.

Qeyd olaraq, 2004-cü ilin payızında Bakı Dövlət Universiteti bu gün açıq aydın görünən çatışmamazlıqların aradan qaldırılması ümidi ilə Sosial Iş proqramına başlayacaqdır.

### QHT Cavab Tədbirləri – Nəticə

Xəbərdarlığın artırılma fəaliyyəti ilə birgə, Azərbaycanda QQZ hallarının qarşısını alma və ya cavab tədbirlərinin görülməsi səmtində birbaşa olaraq proqramlaşdırma işi az aparılmışdır. Qurbanlar üçün xidmətlər minimal səviyyədədir və onlar törədicilər üçün mövcud deyildir. Bakıda fəaliyyət göstərən Psixoloji Məsləhətlər Mərkəzi istisna olmaqla, böhran vəziyyətinə düşmüş ailələr və ya cütlər üçün heç bir proqram mövcud deyil. Donorların olmasından asılı olaraq bir çox proqramların başlanıb və dayandırılması ilə proqramların maliyyələşdirilməsi qeyri ardıcıl xarakter daşımışdır. Zorakılıq qurbanlarının qlobal tələblərinə yönəldilmiş geniş miqyaslı proqramlar baha və çətin olmuş, buna görə də tətbiq olunmamışlar. "Problemin qiymətləndirilməsi və onunla mübarizə aparılması" üçün proqramların yaradılmasında dövlətə yardım məqsədilə olan əsas təşəbbüslər heç zaman reallaşdırılmamışlar.

Hal hazıra kimi QQZ məsələlərinə aid olaraq Azərbaycanda heç bir əhəmiyyətli donor fəaliyyəti həyata keçirilməmişdir. Açıq Cəmiyyət Institutu – Soros Fondu bir neçə milli QHT-nın, o cümlədən, yuxarıda sadalanan bəzi təşəbbüslərin (Psixoloji Məsləhətlər Mərkəzi və Azərbaycanın Gənc Hüquqşünaslar Birliyi) maliyyələşdirilməsini həyata keçirmişdir. BŞBIA-nin Humanitar Yardım Proqramı qrantı ilə maliyyələşdirilən Mercy Corps Azerbaijan təşkilatı vasitəsilə reproduktiv sağlamlıq proqramlarının əsas maliyyələşdirilmələri ilə bərabər, proqramın məqsədləri diqqəti, əsasən, ailə planlaşdırması məsələləri üzərində cəmləşdirmişdi. Davam edən minimal donor təşəbbüsləri QQZ hallarının qarşısı alınma və cavab tədbirlərinə həsr olunan QHT-nın hərtərəfli proqramlaşdırma fəaliyyətini bundan sonra da məhdudlaşdıracaqdır.

## Fokus Qrupları və Fərdi Sorğular

Ehtiyacı olan insanlara tam xidmətlərin göstərilməsi üçün mandatına uyğun olaraq və yuxarıda göstərilən çatışmamazlıqları nəzərə alaraq, Beynəlxalq Xilasetmə Komitəsi təşkilatı Azərbaycanda QQZ məsələsinin təsirini və dərəcəsini, o cümlədən, bu məsələnin mövcudluğunu təmin edən zərərli etiqadları müəyyənləşdirmək məqsədilə birbaşa benefisiar qruplara və hədəf ərazilərdə yaşayan fərdlərə baş çəkmişdir. Buraya qadınlar üçün təşkil olunmuş fokus qrupları və həm kişilərin, həm də qadınların iştirakı ilə keçirilən fərdi sorğular daxildir. Bu prosesdə ümumi olaraq 275 fərd iştirak etmişdir.

Qeyd olunmalıdır ki, cavab tədbirlərinə aid olaraq kənd və şəhər benefisiar əhali arasında əsaslı fərqin olub-olmamasını müəyyən etmək məqsədilə BXK təşkilatının fəaliyyət aparmadığı sahədə (Bakıda) məskunlaşmış MK qadınlardan ibarət olan və DBMK təşkilatının xidmət göstərdiyi iki fokus qrupu aparılmışdır. Bu cür fərqlərin olmayı ortaya çıxmamışdır.

[31] Maliyyə çətinliklərinə görə bağlanmışdır.

## Qadın Fokus Qrupları

Altı günlük kurs müddətində Azərbaycanın altı rayonundan olaraq 15 – 69 yaş həddi intervalında ümumi olaraq bir yüz yetmiş beş qadının daxil olduğu on iki fokus qruplarında iş aparılmışdır. Qadın fokus qrupları (QFQ) qadın məsələlərinə aid olunan müzakirələrdə iştirak etməyə dəvət olunmuşdular. Qrup iştirakçılarının orta sayı təqribən 14 qadından, ən az halda 9 və bir qrupda ən çox (27) nəfər qadından ibarət olmuşdur. Fokus qrupları aparıcının köməyi vasitəsilə həm azərbaycan, həm də ingilis dilində aparılmışdır.

Əksər hallarda fokus qrup müzakirələri canlanma şəraitində keçərək QQZ məsələsinə dair fikirlərin və nöqteyi-nəzərlərin iştirakçılar arasında bölüşməsi ilə keçirdi. Bəzi QFQ iştirakçıları bildirmişdilər ki, əgər onların kişiləri təqdim olunan mövzu barədə xəbərləri olsa idi, onlar öz arvadlarını/gəlinlərini/qızlarını bu müzakirələrdə iştirak etməyə heç zaman buraxmazdılar. Iclasların birində bir kişi arvadının üstünə çay stəkanını atmaqla hədələyərək, onu evdə olmaq əvəzinə iclasda boş-boşuna söhbətə qurşanmasına görə danlamış və iclasdan evə aparmışdı. Elə həmin iclasda bir qayınana öz gəlinini aparmaq üçün gəlmişdi. Bəzi QFQ iştirakçıları müzakirələri yarımçıq tərk edərək bildirmişdilər ki, onlar müəyyən vaxtda evdə olmalıdırlar, əks halda onlar «mövzu ssenarilərindəki qadınlar kimi ola bilərlər». Belə olan hallarda bir çox qadınların təhlükəsizlik məsələsinin reallığı və mövcudluğu birinci növbədə nəzərə alınmış və onların müzakirələrdən çıxıb getmələri xahişinə sualsız əməl olunmuşdu.

Bütün QFQ iştirakçılarının iclasların kontekstini başa düşmələrini təmin etmək məqsədilə görüşlərdə istifadə olunacaq terminologiya, qadınlara qarşı cinayətin qlobal statistikası və qadınlara qarşı zorakılığın törətdiyi nəticələrin sxemi daxil olan qısa tanışlıq məlumatları təqdim edilmişdir. Bundan sonra aparıcılar iştirakçılara ardıcıl olaraq dörd ssenarini oxumuş və sonra isə hekayətlərin əsasında təşkil olunmuş sual və cavablar verilmişdir. Uşaqlara qarşı cinsi təhqir mövzusuna aid olunmuş dördüncü ssenaridən başqa digər ssenarilər, əsasən, yaxın partnyor zorakılığı mövzusu üzərində qurulmuşdu.

Ssenarilər iştirakçıların özləri təhlükəsiz mühitdə olmaqla kənarda baş verən hallar barədə düşündükləri fikir və təcrübələrini öyrənmək məqsədilə istifadə olunmuşdu. Lakin, qadınların bir çoxu ssenarilərdə olan halları canlandırmış və onların şəxsi və ya tanıdıqları qadınların həyatında buna oxşar hadisələrin baş verdiyini təsdiqləmişdilər. Aşağıda iştrakçılarla aparılmış müzakirələr zamanı toxunulan əsas mövzular işıqlandırılmışdır. Təqdim olunan mövzuların çoxu mətndə başqa cür göstərilmədiyi halda yaxın partnyor zorakılığına toxunan 1 – 3 Ssenarilərə aiddir. Uşaqlara qarşı cinsi zorakılıq mövzusu ayrıca təqdim olunacaqdır.

### Inkar və Etiraf etmə

Müzakirələrin başlanğıcında QFQ iştirakçılarının əksəriyyəti aparıcıları QQZ hallarının onların yaşadıqları cəmiyyətdə baş verməməsi barədə tez inandırmağa çalışırdılar, hətta, bəziləri bu məsələnin Azərbaycanda ümumiyyətlə mövcud olmasını inkar edirdilər. Lakin birinci ssenari dinləndiklən az sonra hər bir qrup yaşadıqları icmalarda oxşar halların olmasını etiraf etdi və bu hadisələrin (əsasən, psixoloji və fiziki zorakılığı təsvir edən iki ilk ssenari) onların öz şəxsi həyatlarında baş verməsini boynuna alan qadınların sayı cüzi idi. Bəzi fokus qruplarında iştirakçılara ssenaridə göstərimiş qadının vəziyyətində olan başqa bir şəxsi tanıdıqları barədə sual verildikdə, onlar çox zaman “biz hamımız o gündəyik” cavabını verirdilər.

Azərbaycan qadınlarının həyatında zorakılıq barədə sual verildikdə ilk cavabın inkar xarakterli olmasının bir neçə mümkün izahı vardır. Bunlardan fokus qruplarında ortaya çıxan ən əsas ikisi “rüsvayçılıq, utanma” və zorakılıq anlayışının nədən ibarət olmasının başa düşülməsidir.

Bir çox qadınlar üçün ailədə və yaxın partnyorlar arasında baş verən zorakılıq barədə sadəcə söhbətin açılması, hətta, hipotetik olaraq müraciət edildikdə belə eyibli və rüsvayçı sayılır. Bütün fokus qruplarında qeyd olunmuşdur ki, zorakılıq münasibətlərində yaşayan qadın bu barədə başqalarına, xüsusən də, tanımadığı kənar şəxslərə danışmaqla ailəni biabır etməkdənsə, zorakılığı açıq olaraq inkar etməyi üstün tutur. Hətta yaşadıqları icmada belə qadınlar “Biz bu hallar barədə eşidir və onları görürük, lakin biz bu gür hadisələri müzakirə etmirik” demişdilər. Fokus qrup müzakirələrində belə bir halın şahidi olunmuşdur ki, qadınlar zorakılıq barədə sadəcə olaraq tanıdıqları başqa qadınların həyatına, özlərinin uzaq keçmişinə və ya kollektiv olaraq onların hamısına təsiri olmuş zorakılıq hadisələrinə aid olaraq danışmağı üstün tutmuşlar. Onlar hal hazırda şəxsi həyatlarında olan zorakılıq hallarını etiraf etmir və bu barədə müzakirələrdən qaçırlar. Aydın olmuşdur ki, bu fokus qrup müzakirələri qadınlara qarşı zorakılıq mövzusu haqqında onlara ictimai şəkildə danışmaq imkanını vermiş ilk fürsət olmuşdur.

Rüsvayçılıq və utanma məsələsinə əlavə olaraq, qeyd etmək lazımdır ki, qadın həyatında baş verən vəziyyətə görə “bədbəxt” olsa da belə, o, bunu zorakılıq kimi qiymətləndirmir[32]. Təqdim olunmuş ssenarilərə aid olaraq QFQ iştirakçıları kişinin hərəkətlərinə bəraət qazandıraraq və ərin arzusuna uyğun olaraq qadının davranış tərzini dəyişməsinin çıxış yolu olmasını deyərək, “Bu doğrudandamı o qədər pisdir?” sualını vermişdilər. Bir çox qruplarda “Bu normaldır” frazası işlədilmişdir. Belə ki, zorakılıq bir çox halda qeyri-adi və yaxud, hətta, səhf hərəkət kimi baxılmadıqda, onun baş verməsinin etiraf olunması çətinləşə bilər. Bu haldan yalnız kənar şəxs tərəfindən törədilmiş zorakılıq halı istisna olunur. Bu ən böyük faciə kimi qəbul olunmuşdur. Lakin bu cür hərəkəti qadının əri törədərsə (ailə zorlaması), onda buna ən çox halda kişinin hüququ kimi baxılır və nə təhqir, nə də və heç bir vəchlə, zorlama kimi başa düşülmür.

Buna görə də, utanma və zorakılığın nədən ibarət olmasını başa düşməmə qadını bu zorakılığın mövcud olmasını etiraf etməsindən uzaqlaşdıra bilər. Digər tərəfdən, müvafiq forum söhbətləri təmin olunduğu zaman qadınlar zorakılığın baş verməsini ifadə edə bilər və edirlər də. Imkan verildikdə onlar öz fikirlərini və rəylərini çox *böyük həvəs və həyəcanla* ifadə edirlər. Bu dixotomiya qadınların içində QQZ məsələsi ətrafında onların şəxsi rəylərinə aid olaraq mübarizənin olmasını açıq göstərir.

## Böyük Seçim: Dözmək, Boşanmaq və Seçimin Olmaması

“Həyatını yaxşılaşdırmaq üçün ssenaridəki qadın nə etməlidir?” sualına cavab verilərkən, ortaya çıxan mövzulardan ən genişi “Dözmək və ya Boşanmaq” mövzusu oldu. QFQ iştirakçıları bu iki seçim arasında orta çıxış yolu haqqında heç bir təsəvvürə malik deyildilər. Əlalxüsus, ər ailənin qazanc gətirənidirsə, onun ailədə başçı olması, bütün hakimiyyətin ona məxsusluğu və ona itaət etmənin vacibliyi geniş təbliğ olunmuş və yayılmışdır.

- “Əgər ər qadının bütün maliyyə tələbatlarını təmin edirsə, buna görə qadın ona tabe olmalıdır”.
- “Ər evdən çıxıb pul qazanmalı, qadın isə evdə oturub ərinin qazandığını yeməlidir”.
- “Əgər ər qadını hər cəhətdən təmin edirsə – qadın uşaqlara baxırsa və kişi qadının qayğısını hər zaman çəkirsə, bu arvadın ən böyük xoşbəxtliyidir”.

Arvadların borcu yalnız “evdə oturmaq və tabe olmaq” və ərin arzularına əməl etmələridir. Zəiflik başqa seçim yollarının olmamasına və ancaq dözmək seçiminə işarə edir. Bir qadının dediyi kimi, “əgər mənim ərim desə ki, qatıq qaradır, deməli qatıq qaradır”.

Buna baxmayaraq, belə bir fikir də qeyd olunmuşdur ki, qadınların dözməkdən başqa alternativ yolları da olmalıdır və “o, ömrünün sonuna kimi kötək altında yaşamamalıdır”. Yeganə alternativ yol, və bu da ən pis ssenari üzrə təqdim olunduğu kimi, qadının ərindən boşanması seçimidir. Fokus qruplarda boşanmış qadınlar olsa da, onlar, sözsüz ki, azlıq təşkil edirdilər. Boşanma vəziyyətinə düşən qadınlar hər şeyi itirmək təhlükəsindən qorxurlar. Onlar əksər hallarda maliyyə və mülkiyyət cəhətdən ərlərindən asılı olurlar.
Maliyyə asılılığının təzahürü bir qadının “Müstəqil olmaq üçün qadının işi olmalıdır; əgər qadın işləyirsə, o, boşanmaq üçüq azad qərar verə bilər” sözlərində əks olunmuşdu. Qadınlar öz uşaqlarını itirməkdən, yaşadıqları cəmiyyətdən kənarlaşdırılmasından və bütün Azərbaycan cəmiyyətinin məzəmmətindən qorxur. Səbəbindən asılı olmayaraq bir dəfə boşanmış qadının ikinci dəfə ərə getmək şansı çox azdır. “Adamları nəyə görə boşanma səbəblərinə inandıra bilməzsən, onlar buna görə yenə də səni günahlandıracaq və deyəcəklər ki, ailənin dağılmaması üçün sən əlindən gələni etməmisən”. Buna görə də, boşanma seçim yollarından biri olsa da, ona üstünlük verilmir.

Bu iki ziddiyyət ailə münasibətlərində qadının zorakılıqla üzləşdiyi zaman çıxış üçün seçim yollarının olmamasını göstərir. Xidmətlərin olmaması və ya onlara məlum olmaması səbəbindən qadınlar iki seçimdən ibarət alternativ yollarını nəzərə ala bilmirlər. Bir Beynəlxalq Təşkilatın əməkdaşı bu çətinliyə aid olaraq aşağıdakı xülasəsini vermişdi:

> Əgər qadın banan almaq məqsədilə dükana getməmişsə, onda o banan haqqında heç nə eşitməmiş və görməmiş olur. Onun banan haqqında təsəvvürü yoxdur və hətta onun dünyada mövcud olmasını bilmir. Eynilə, bunu zorakılıq münasibətlərində olan qadınlar üçün yaradılmış xidmətlərə də aid etmək olar. Əgər o öz vəziyyətinə oxşar vəziyyətdə olan qadınlar üçün nəzərdə tutulan xidmətlər haqqında heç nə görməmiş və ya eşitməmişsə, bu halda o bu xidmətlər üçün müraciət etməyəcək və bunu çıxış üçün seçim yolu kimi nəzərdən keçirməyəcəkdir.

[32] Fokus qruplarında xoşbəxt olmayan münasibətlər şəraitində yaşayan qadınların vəziyyətini təsvir etmək üçün ən çox istifadə olunan termin “bezikmiş” sözüdür. Bu sözün intim partnyor münasibətlərində bədbəxtlik və depressiyanı göstərməsi qənaətinə gəlmək olar.

Zorakı münasibətlərlə üzləşmiş qadınların çıxış yolu kimi iki seçim variantlarını yekunlaşdıraraq, bir qadının sözlərini qeyd etmək yerinə düşür: "Ailənin saxlanılması və qorunması üçün qadın evdə də qala bilər və yaxud onlar boşana da bilərlər, lakin onlar çən çox evdə qalmağa və dözməyə üstünlük verir, hətta bu onların ömürlərinin sonuna kimi davam etsə də". QFQ iştirakçıları dözümlülüyü fəxr hissi ilə təsvir edirdilər. Azərbaycanlı qadınlar "çox dözümlüdürlər".

## Kömək Axtarışı: Ailə Dairəsi Kənar Şəxslərə qarşı

Dözmək/boşanmaq seçim variantlarını nəzərə almayaraq və zorakılıqla davam edən münasibətlərə batmış qadının kömək üçün kimə müraciət edəcəyi barədə müzakirələrə başladıqda, ən çox ehtimal olunan cavab qadının, birinci növbədə, yaxın əhatəsində olan adamlara, əsasən ailə üzvlərinə və bəlkə də yaxın dostlarına müraciət etməsi olmuşdur. Azərbaycanda zorakılıq münasibətlərinə düşmüş qadınların xidmətgöstəriciləri onların *ailələridir.* Ailələr münasibət quruculuq məsləhətlərini; fiziki zorakılıqdan yaxa qurtarmaq istəyən qadına daldanacaq; və cütlər üçün himayə və barışdırma xidmətlərini verirlər. Onlar qadının yaxınlaşdığı birinci adamlardır və ailə tərəfindən verilən məsləhətlər qadın üçün ən vacib olanı sayılır. Ailə üzvlərinin təmin etdiyi güclü kömək şəbəkəsinin olması xoşbəxtliklə əlaqələndirilsə də, bu sistemin də öz bədbəxtçiliyi vardır: kömək heç də hər zaman faydalı olmur və o, kənardan yardım xidmətlərinin alınmasını qadağan edir.

Göstərilmişdir ki, ailə üzvlərinin etdikləri "kömək" çox vaxt dözmək üçün yolların və ya qadına "səhv" davranışının dəyişdirilməsi təkliflərini verməkdən ibarətdir. Bundan başqa, qadınların yaxınlaşdıqları ailə üzvləri kömək göstərmələri üçün müxtəlif nüfuz səviyyələrinə malikdirlər. Ailədə hökm sürən güc pilləsi birinci olaraq ərin valideynləri, sonra ərin özü, bunldan sonra arvadın valideynləri və sonda arvadın özü üçün nüfuz yerini ayırır. Təəssüf ki, ərin valideynləri ərin davranış və hərəkətləri ilə çox zaman razılaşırlar və arvadın valideynlərin öz qızlarının boşanması ilə nəticələnəcəyindən ehtiyat edərək heç bir tədbir görülməsinə üstünlük vermirlər. Lakin, qeyd etmək lazımdır ki, bəzi QFQ ərlərin valideynlərilə və yaxud öz valideynlərilə aparılan məsləhətləşmələrin fayda ilə nəticələnməsini göstərmişdilər.

Ailə problemlərinə kənar şəxslərin cəlb olunması son dərəcədə qəbulolunmaz hesab edilir. Bu ailəyə rüsvayçılıq gətirir və problemlərin daxili qaydada həll olunması ənənəsini pozur. Lakin etiraf olunmuşdur ki, bəzən ailə üzvlərinin köməyi heç də həmişə fayda vermir. Bunu nəzərə alaraq, fokus qruplarına alternativ kənar seçim variantları təqdim olunmuş və bu variantların nə dərəcədə səmərəli olmaları müəyyən edilmişdir. Bir çox fokus qrup iştirakçıları lazımi məlumat və köməklə təmin edən anonim telefon "qaynar xəttini" yaxşı imkan hesab etmişdilər – bu şərtlə ki, anonimlik tam təmin olunsun və telefon xəttində xidmət göstərən şəxs müvafiq məsələlərə görə təcrübəli və peşəkar işçi olsun. Digər mümkün ola bilən xidmət qadının çətinlik olmadan ərindən xəbərsiz gələ biləcəyi yerlərdə ixtisaslı işçinin olması təklifi idi, məsələn, poliklinika, məktəb və ya xəstəxana.

Azərbaycanda vəkillərin statusuna verilən qiymət başqa ölkələrdə ailə həkiminlərinin statusuna verilən qiymət kimi ölçülür. Qeyd olunmuşdur ki, bəzi qadınlar və ya cütlər çətinliyə düşdükdə və vəkilə müraciət etdikdə, vəkillər onların ayrılmamalarına kömək edə bilmişlər. Vəkilin onlara nə cür məsləhətlər verməsi və ya hansı köməklə təmin etməsi barədə heç bir məlumat olmasa da, bir neçə fokus qrupları qeyd etmişdilər ki, vəkilin köməyi cütlər bir yerdə müraciət etdiyi halda fayda verə bilər.

Qadınların əksəriyyəti yardım üçün həkimə müraciət etməni narahatçılıq hissi ilə qarşılamışdılar, çünki bu zaman polis hadisədən xəbər tuta bilər və ər həbs oluna bilərdi. Ailə zorlaması hallarına aid olaraq iki istisna var idi, lakin bunlar da yalnız hansısa ginekoloji və ya reproduktiv zədələnmənin və yaxud kənar şəxs tərəfindən zorlanmanın olduğu zaman qəbul olunurdu. Lakin hətta bu cür vəziyyətlər yarandığı zaman da həkimə müraciət ən çox üstünlük verilən seçim variantı hesab olunmurdu.

Heç bir qadın zorlanma kənar şəxs tərəfindən baş verməmişdirsə yardım üçün polisə müraciət etməni müvafiq hesab etməmişdir. Və hətta əks halda da bu yol ən çox məsləhət verilən çıxış yolu kimi qəbul olunmurdu. Qadınlar polisin bu məsələyə qarışmasının ərin həbs olunması və ailənin tamamilə dağılması ilə nəticələnməsindən qorxurdular. Bundan başqa, belə düşünülürdü ki, polis onsuz da heç bir kömək göstərə bilməyəcək və ancaq adamların diqqətini qadının başına gələn pis hadisəyə yönəldəcək və bununla da qadının rüsvayçılığa və kənarlaşdırılmasına düçar olması ehtimalını artıracaqdır.

Kənardan kömək alınması üçün variantların mümkünlüyünə və ya müxtəlifliyinə baxmayaraq, belə bir qayğı ifadə olunmuşdur ki, heç bir kənar şəxs qadını konkret yardımla təmin edə bilməz və qadın ailədən kənarda kömək axtarması üçün ər tərəfindən hər zaman daha böyük riskə məruz qalacaqdır. Bu vaxt kənar şəxslərə kömək üçün yaxınlaşan qadın heç bir fayda ala bilmir, çünki sadəcə söhbətlərin aparılması ərin davranışına müsbət təsir göstərə bilməz, lakin ərin valideynləri öz övladına təsir göstərə bilərdi. Bununla bərabər, ər çətin ki, kənar xidmət göstərənin göstərişlərinə əməl etsin. Bunları nəzərə alaraq, qadınların kənardan alınan yardım imkana qarşı əks dəlilləri çoxluq təşkil edirdi.

QFQ iştirakçıları zorakılıq törədən ərin məsləhət almaq üçün öz dostlarına və ya ailəsinə yaxınlaşa *bilməsini* qeyd etmişdilər, lakin bu imkan da bir neçə səbəbə görə inandırıcı hesab olunmamışdı: 1) O başqalarına nə üçün etdiyi əməlləri barədə söyləməlidir?, və 2) əgər o bu əməlləri törətməkdə davam edirsə, çətin ki, o, bu halın dəyişdirilməsinə ehtiyacın olması barədə düşünsün. Əlavə olaraq, əgər kişi öz dostlarına və valideyn ailəsinə bu barədə danışarsa, qadınlar çox hallarda onların məhz kişinin tərəfini saxlayacaqlarına inanırdılar.

Qeyd etmək lazımdır ki, bütün qruplarda yardım almaq üçün təqdim olunmuş bütün seçim variantları üzrə yekdil razılıq əldə olunmamışdı. Bəzi qadınlar yardım almaq üçün kənar şəxslərə müraciət etmənin qəbulolunan saydığı halda, bəziləri bunu bağışlanmaz səhv hesab edirdilər. Bundan başqa, qadınların özləri verdikləri cavablarda müxtəliflik hiss olunurdu. Tez tez belə bir hal müşahidə olunurdu ki, qadın zorakılıqdan qurtaran qadının yardım üçün həkimə müraciət etməsini mümkün sayır və bir az sonra həmin qadın deyir ki, qadın üzləşdiyi problemlər barədə heç kəsə danışmamalıdır və bu vəziyyətdə ən yaxşı yol onun səbir etməsi və dözməsidir. Əksər qruplarda qadınlar bu vəziyyətə düşən qadınlar üçün kömək göstərən təşkilatın olduğu halda qadınların ora müraciət edə bilməsi imkanını vurğulayırdılar, lakin ümumi olaraq onların hamısı bunun, ilk olaraq, qadının ərinə tabe olmasından və yaxud ailə üzvlərinin köməyinə arxalanmasından sonra mümkün olmasını deyirdilər. Köhnə ənənələr və meyarlar problemlərin naməlum və sınaqdan keçməmiş həll metodlarını üstələyirdi. Bir qadının dediyi kimi: “Bizim borcumuz birinci olaraq cəmiyyətimizi və onun dəyərlərini qorumaqdır”, və bu dəyərlər onu ailədən çölə çıxarmamaqdır.

## Qadın Zorakılığına Qarşı Münasibətlər: “Biz hamımız bunun içindəyik” və “Bu qadının günahıdır” qarşıdurması

Ümumiyyətlə, qadınlar ssenarilərdə göstərilən kişilərin hərəkətlərini pis sayırdılar. Qadına qarşı bu cür rəftar yanlışdır və ona qarşı daha çox hörmətlə davranılmalıdır. Ssenari haqqında öz fikirlərini bildirdikləri zaman qadınlar bu filmlərdə göstərilən qadınların nəyi yaşamasını başa düşdüklərini ifadə etdilər. Çoxları özlərinin və ya tanıdıqları başqa qadınların bu vəziyyəti barədə xəbər verdilər. Onların hamısı ssenaridə olan qadınların əziyyət çəkmələrini başa düşür və bunu vurğulayırdılar. QFQ iştirakçıları bu ssenarilərin “onların da başlarına gəldiklərini” təkrarən deyirdilər.

Lakin əzab çəkmənin zorakılıqdan *seçilməsində* və *bunun səhv hərəkətə* görə baş verməsində fikir müxtəlifliyi mövcud idi. Əksər fokus qruplarında kişinin hərəkətləri düz olmasa da, vəziyyətin düzəldilməsi üçün kişinin davranışlarını dəyişdirilməsində qadının məsuliyyət daşıması kimi cavablar eyni idi (məsələn, “əgər qadın kişinin istəyini yerinə yetirsə, o qadını heç vaxt zorlamazdı”). Bir qadının fikrincə “döyülmələrin 90%-də qadının günahı var”.

Müxtəlif yollarla ifadə olunmuşdur ki, yaxşı arvadlar öz ərlərini dəyişdirmək yolunu bilirlər, buna görə də, təhqirə məruz qalmış qadın yaxşı arvadların işlətdiyi üsullardan istifadə etmir və zorakılığa görə onun özü günahkardır. Kişinin zor işlətməsinin qarşısı almaq üçün qadın öz davranışını və rəftarını dəyişdirməsinə çalışmalıdır. Bunun üçün qadın geyimini gözəlləşdirə bilər, yaxşı xörəklər bişirməyi öyrənə bilər, saçını dəyişdirə bilər, kişinin tələbatlarına daha diqqətlə yanaşmalı və, hər şeydən əlavə, onun istəklərinə tabe olmalıdır. Bəzi qadınlar belə fikir yürütdülər ki, qadın ərinin könlünü sındırmış və buna görə də onun pis rəftarına səbəb olmuş hər hansı hərəkətinə görə öz ərindən üzr istəməlidir. Qadınlar zorakılığın hətta ərlərin səhvi nəticəsində baş verməsini qəbul etsələr də, bu çox zaman kişinin hirsli olmasına görə xarici amillərin təsirinə aid edilirdi, məsələn, maliyyə çətinliyi, iş problemləri və yaxud hətta başqa qadının olması, və buna görə də kişinin səhvi başa düşülməli və bagışlanmalıdır. Bağışlamamaq və ya üzr istəməmək pis arvadların əlamətlərinə işarə olunur.

Qadınlar faktiki olaraq hadisələrlə rastlasdıqda “biz hamımız bunun içində bir yerdəyik” münasibətini göstərsələr də, onların başqalarının dərdinə şərik olamaması qorxuducu şəkildə təzahür edə bilər. Emosiyanın olmaması halına nümunə olaraq, fokus qruplarından birində çay qırağında yerləşən kəndlərdən birində bir qadının namus üstə qətl olunması barədə müzakirəni misal gətirmək olar.

> Bizdən yuxarıda çay qırağında yerləşən bir kənddə bir qadını zorlamışdılar. Zorlayan adamı heç kəs tanımırdı. Qadının doğma qardaşı ütünü onun boğazına dolayaraq, qadını suda batırmaq üçün çaya atmışdı. Qadın çayın aşağı istiqamətində suda üzərək bizim kəndə çatmış və çayın sahilində bir neçə gün arxası üstə uzanaraq qalmışdı. Onu sahildən heç kim götürməmiş və itlər onun ayaqlarını yemişdilər. Nəhayət, kimsə onu təzədən çaya atmış və qadın suda batmışdı. Qadının taleyi barədə heç kim sonradan maraqlanmamışdı.

Qrup iştirakçıları göstərdilər ki, qardaş bacının zorlanmasına görə ailəni rüsvay olmaqdan xilas etmək məqsədilə öldürmüşdü. Qadın, çox güman ki, öldürüldüyü vaxt hamilə idi. Bu cinayətinə görə qardaş heç

vaxt məhkum edilməmişdi. Həmin qrup sonrakı müzakirələrdə ifadə vermişdi ki (hətta haradasa zarafat hissi ilə), bu cür hadisələrin qarşısını almaq üçün kəndlərdə qadını öldürmək lazımdır ki, bundan sonra başqa qadınlar özlərini zorlanmaqdan qorusunlar.

Fokus qrup qadınlarının müqayisəolunmaz və qeyri-ardıcıl cavabları bu sahədə proqramlaşdırmanın necə çətinliklərlə üzləşməsindən xəbər verir. Zorakılığa görə günah və ərin hərəkətlərinin idarə olunmasına görə məsuliyyət qadının üzərinə atılırdı. Fokus qruplarında iştirak edən qadınların ar-arvad arasında zorakı davranışların arvada xas olan zəifliklə əlaqədar baş verməsi və qadının sadəcə olaraq ərinin arvadı və zorakılığa qazanması əvəzinə onun bu cinayətin qurbanı olmasını başa düşmələri çətin olaraq qalmışdır.

## Uşaqlara Qarşı Cinsi Zorakılıq və Erkən Nikah

Ssenarilərdən birində 14 yaşlı qız uşağının anası tərəfdən maliyyə qazancına görə razılığı ilə qonşu tərəfindən cinsi təhqirə məruz qalması təsvir olunur. Bu ssenari ikrah və şok hissi ilə qarşılanmışdı. Uşağın qorunmaması üçün günah dəyişkən olaraq olmayan ərin və ananın üzərinə qoyulmuşdu. Uşaqla cinsi əlaqəyə girən şəxs hərəkətlərinə heç bir vaxt günahlandırılmadı. Uşağın məcburi ərə verilməsi heç də həmişə “uşağa qarşı zorakılıq” kimi qiymətləndirilmirdi, lakin bunun yaxşı və ya pis olması barədə qruplarda fikir ayrılığı var idi. Lakin yad kişi ilə cinsi əlaqədə olmuş qız uşağının vəziyyətini necə düzəltmək barədə müzakirələr zamanı qızın həmin kişiyə hətta istəmədiyi halda ərə getməsinə razılıq verməsinə üstünlük verilmişdi. Bu şəraitdə qızın seçimi olmayacaq və o, bunu etmədiyi halda sadəcə olaraq bakirəliyini itirdiyinə görə pozğun yola qurşanacaqdır. Qadınlardan biri kəbindən qabaq cinsi əlaqədə olmuş qızla yaşayaraq rüsvayçılıq içində yaşamaqdansa, onu öldürməyin yaxşı olmasını dedi. Ən azı iki fokus qrupunda qadınlar uşaq fahişəliyi ilə məşğul olan adamları tanıdıqları və bir halda bunun ana tərəfindən törədildiyini barədə ifadə verdilər.

Uşağın onu zorlayana ərə getməsinə məcbur edilməsi ailəni rüsvayçılıqdan qurtarmaq üçün çıxış yolu kimi nəzərdə tutulur və uşağın əks halda ala bilməyəcəyi gələcək həyatını təmin edir. Mədəni normalar qadının ərə getdiyi zaman bakirə olmasını tələb edir və buna əməl olunmadıqda o, bakirəliyin itirilmə səbəblərindən asılı olmayaraq, ərə getmək imkanından məhrum olmaqla cəzalandırılır. Bu ssenari “erkən nikah” konsepsiyası üzrə aparılacaq müzakirələr üçün təqdim olunur. Uşaq Hüquqları Konvensiyasına zidd olaraq, kəndlərdə erkən nikahlara yol verilir. Azərbaycanda qızlar üçün ərə getmək yaşı qanunla 17 yaş müəyyənləşdirilməsinə baxmayaraq, fokus qrup iştirakçıları 15 yaşlı qız uşaqlarının ərə verilməsini uşağa qarşı zorakılıq hesab etmirlər və bu hal faktiki olaraq çox yerdə yayılmışdır. Lakin onlar qadının 18 – 25 yaşlarında ərə getməsinin daha yaxşı olmasını etiraf etmişdilər.

Fokus qruplarından birində bir neçə 15 yaşlı qızlar iştirak edirdi. Ssenarilərin cinsi xarakter daşıması və bu iştirakçıların acığına səbəb olacağından ehtiyat edən aparıcılar 15 yaşlı qızlardan üzr istəmişdilər. Lakin sonradan məlum olmuşdur ki, həmin 15 yaşlı qızlardan iki nəfəri iki aydan sonra ərə getməyə hazırlaşırlar. Bu uşaqların ailə qurmazdan qabaq cinsi təhsil alması və onların cinsi münasibətləri başa düşməsi barədə məsələni ortaya qaldırmışdı. Aşkar olundu ki, bu cür məsələlərə fikir, demək olar ki, verilmir (nə evdə, nə də ki, məktəblərdə).

Qadınlar ifadə verdilər ki, ərə getməzdən qabaq qızların cinsi əlaqə və münasibət məsələlərindən xəbərləri olmasının yaxşı fikir kimi düşünmələri ilə bərabər, onlar öz qızlarının bu barədə evdən kənarda məlumat almalarını düşündükdə narahat olurlar. Buna baxmayaraq, bu məsələ barədə öz övladları ilə söhbətin necə aparılmasının yollarını bilmirlər. Qızlarının bu cür ayıb olan mövzu barədə danışıqlardan “qorunması” və cinsi münasibətlərdə nəyin baş verməsini başa salmaq üçün lazım olan məlumatların verilməsinə ehtiyac arasında ziddiyyət güclü idi.

Uşaqlara qarşı cinsi zorakılıq və bura daxil olan məsələlər (erkən nikah, məcburi ərəvermə, və, məsələn, yaxın qohumlar arasında cinsi əlaqə) Azərbaycanda daha çox diqqətə və tədqiqata ehtiyacı olan mövzudur və o, bu qiymətləndirmədə təqdim olunan ssenarinin mövzusundan kənara çıxan diqqətə malik olmamışdır.

## Irəliyə Hərəkət: Qadınlara qarşı zorakılıq probleminin həll edilməsi üçün nə baş verməlidir?

QFQ iştirakçıları yaşadıqları cəmiyyətdə qadına qarşı zorakılıq probleminin həll olunmasına başlamaq üçün hansı addımların atılmasını deməkdə çətinlik çəkirdilər. Qadınlar, yuxarıda qeyd olunduğu kimi, üzləşdikləri zorakılığa görə özlərini/başqa qadınları günahlandırmaqda çevik olsalar da, bu təəcüblü olmasa da, istehza doğurur ki, onlar özlərini problemi həll etmək üçün sağlam qüvvəyə malik vasitənin bir

hissəsi kimi görə bilmirlər[33]. Hal hazırda əksər ailə və icmalarda onların qərar vermək üçün qüvvəyə malik olmadıqlarına görə məsələnin həllini cəmiyyətdə ənənəvi quvvə sahiblərinə ötürürlər. Dəyişikliklərin həyata keçirilməsinə görə məsuliyyət daşıyanların siyahısına aşağıdakılar daxildir:

- Ağsaqqallar
- Icraedici Komitələr
- Kişilər
- QHT-rı tərəfindən keçirilən proqramlar

Bütün fokus qruplar göstərmişlər ki, yaşadıqları cəmiyyətlərdə QQZ endirilməsi üçün proqramlar yaradılmalıdır, o cümlədən:

- Ailələr (qadınlar, kişilər *və* uşaqlar) üçün zorakılığa və insan hüquqlarına aid olaraq təhsilin və xəbərdarlığın artırılması
- Qadınlara qız uşaqlarına cinsiyyət və qadınların insan hüquqlarını başa salmasına kömək edən proqramlar
- Qadın klublarının və qadın mərkəzlərinin yaradılması
- Maliyyə təminatına görə qadınların ərlərindən asılılığını qırmaq üçün özünəinam fəaliyyətləri/işlər üzrə proqramlar
- Zorakılıq münasibətlərində olan qadınlar üçün məxfi xidmətlərin təmin olunması
- Böhran vəziyyətində olan cütlərin bu cür vəziyyətdən müvəffəqiyyətlə çıxmış digər cütlərlə görüşərək vəziyyətdən necə qurtarmaq yolları barədə danışıqlarını təşkil etmək üçün proqramlar.

Qadınlardan biri "Azərbaycanda qadınlar üçün ev işlərindən başqa heç bir başqa məşğuliyyət yoxdur, odur ki, kişilər belə şeylərə adət etməmişlər". Buna əcnəbi və etibarsız bir şey kimi baxılacaqdır. Başqa bir qadın proqramların davamlı olmayacağından ehtiyat edirdi, xüsusilə, əgər kişilər arvadlarına iştirak etmək üçün icazə vermədi halda. Qeyd olunmuşdur ki, qadınlar üçün yaxşı olardı ki, onlar ərlərinə tabe olsunlar və iştirak etməsinlər, çünki "qrup ola bilsin ki, sabah dağılsın və qadın həm qrupunu, həm də ailəsini itirmiş olsun".

Bunu yada salmaq xüsusilə vacibdir ki, qadınlar itki qorxusunu (ailəsini, uşaqlarını, evini, maliyyə təminatını) qadın proqramlarında iştirak etməyin əksinə göstərmişdilər. Təklif olunmuşdur ki, hər hansı yaradılan proqramda həm qadınlar, həm də kişilər birgə iştirak etməlidirlər. Çünki qruplara təkcə qadınların dəvət olunması kişilərdə qısqanclıq və yaxud şübhə doğura bilər. digər qadın demişdir ki, proqramların müvəffəqiyyət qazanmasına görə onlar həm kişilərin, həm də qadınların ehtiyaclarına yönəldilməlidir.

Fokus qrup müzakirələrindən aydın olmuşdur ki, qarşısı alınma və cavab tədbirlərinin proqramlaşdırılması uyğun olan və təsirli tərzdə yaradılarsa, onlar cəmiyyətdə qadınlar tərəfindən müvafiq sayılacaq və dəstəklənəcəkdir. Fokus qrupların əksəriyyəti bildirmişdirlər ki, onlar qadınlara qarşı zorakılıq barədə söhbətlər aparmaq üçün kiminsə yenidən kəndlərinə gəlməsini arzulayardılar.

## Qadın Fərdi Sorğularının Nəticələri

Fokus qrup müzakirələrindən sonra qadınlar fokus qrup mövzularına aid olaraq könüllü və anonim sorğularda iştirak etməyə dəvət olunmuşdular. Sorğular fərdi məlumatlar əsasında Azərbaycanda qadınlara aid olaraq rəylərin dəqiqləşdirilməsi, o cümlədən, icmalarda QQZ hadisələrinin daha aydın göstəricilərini əldə etmək məqsədilə yaradılmışdı. Qadınlara cavab vermək istəmədikləri sualları cavabsız qoymaq imkanı verilmişdi. Sorğular azərbaycan dilində azərbaycanlı qadın aparıcının vasitəsilə aparılırdı. 175 qadın fokus qrupu iştirakçısından 134 nəfər qadın sorğularda iştirak etmişdi. Hər iştirakçıya 10 dəqiqə vaxt sərf olunmuşdu.

### Əsas Demoqrafik Məlumatlar

15-dən 69 yaşa qədər bir yüz otuz dörd (134) qadın sorğuda iştirak etmişdir. Qadın sorğu iştirakçısının (QSI) orta yaş həddi 35 yaş təşkil etmişdir. QSI 50%-i ərdədir və 62%-i ərdə/əvvəllər ərdə olmuş qadınların ən azı 1 uşağı var (hər ərdə/əvvəllər ərdə olmuş qadına orta hesabla 3 uşaq olmaqla).

**Indiki ailə vəziyyətiniz necədir?**

| | | Tezlik | Faiz |
|---|---|---|---|
| | Evli | 73 | 54.5 |

[33] Qeyri sağlam davranış nəticəsində ortaya çıxan zorakılığa görə məsuliyyətin qəbul olunmasına əks olaraq.

| | | |
|---|---|---|
| **Nişanlı** | 1 | .7 |
| **Nigahın dağılması səbəbindən ayrılmışlar** | 1 | .7 |
| **Ərindən boşanmış qadınlar** | 3 | 2.2 |
| **Dul qadınlar** | 8 | 6.0 |
| **Heç vaxt ərə getməmiş** | 48 | 35.8 |
| **Ümumi** | 134 | 100.0 |

Bütün qadınlar ən azı ibtidai məktəbi bitirmiş, 50%-i texniki/peşə məktəblərini və ya institutu bitirmişlər.

| Aldığınız ən yüksək dərəceli təhsil hansıdır? | Tezlik | Faiz |
|---|---|---|
| **Ibtidai Məktəb** | 2 | 1.5 |
| **Orta Məktəb** | 61 | 45.5 |
| **Texniki Peşə Məktəbi** | 10 | 7.5 |
| **Texnikum** | 39 | 29.1 |
| **Universitet** | 22 | 16.4 |
| **Ümumi** | 134 | 100.0 |

Qadınların səksən yeddi faizi (87%) evdən kənarda həftədə ən azı 20 saat olmaqla işləmişdir. Məlumat verilən işlərin çoxu müəllimələr (həmin işləyən qadınlardan 20%-i), dayələr (6%) və qulluqçular (7%) kimi "qadına uyğun" işlər kimi qiymətləndirmək olar. Işləyən qadınların arasında bir əczaçı, bir həkim və bizneslə məşğul olan iki qadın var idi. Orta məktəbi bitirdikdən sonra təhsilini davam etdirmiş işləyən qadınların sayı (75%) təhsilini davam etdirməmiş qadınların sayından (54%) çox idi.

Ailə vəziyyətinin evdən kənarda işləyən qadınların nisbətinə təsiri yoxdur. Evdən kənarda işlədiklərini altmış səkkiz faiz (68%) evli qadınlar və 64% evli olmayan (boşanmış, dul qalmış, heç vaxt ərdə olmamış) qadınlar məlumat vermişlər. Maraq üçün, yalnız 47% evli qadınlar ərlərinin evdən kənarda qazanclı işlərdə işləməsini məlumat vermişdilər.

## Qadın və Kişi Nöqteyi-Nəzərləri

Icma və ev-eşik işlərinə aid olaraq QSI çoxu bu məsələyə kişilərin və qadınların eyni fikirdə olduqlarını bildirmişdilər (61 – 73%). Təəccüblü deyil ki, qadınların ən azı 25%-i bu iki sahə üzrə kişilərin nöqteyi-nəzərlərini əsas tutmuşdular.

Ictimai qərarların verilməsində kişilərin nöqteyi-nəzərlərinin daha vacib olmasını evli/əvvəllər evli olmuş qadınlar (40%) heç vaxt ərdə olmamış qadınlardan (27%) daha çox düşünürlər, eyni zamanda ev-eşik məsələləri üzrə qərar qəbul edilməsinə qiymət verdikdə qadınların ailə vəziyyəti əhəmiyyətli rol oynamamışdır (müvafiq olaraq 23% və 27%). Müsahibə aparılmış bütün qadınların səksən faizi (80%) hesab edirlər ki, qadınlar maliyyə idarəolunmasında yaxşıdırlar. Lakin evli qadınlar(23%) əvvəllər evli olmuş (9%) və heç vaxt ərə getməmiş (14%) qadınlardan daha çox fikirləşirlər ki, qadınlar ailənin maliyyə işlərini idarə etməkdə yaxşı deyillər.

**Cədvəl 1.1 Ev-eşiklə əlaqədar qərarvermə nöqteyi-nəzərləri**






Maraq üçün, qadınların çoxu (69%) oğlanların və qızların təhsil almasının bərabər əhəmiyyətə malik olmasını desələr də, iyirmi beş faiz (25%) qadın qızların təhsil almasının vacib olduğunu demiş və bu seçimi 33% heç vaxt ərdə olmamış qızlar etmişlər.




Qanunla müəyyən olunan hüquqlara aid olaraq, qadınların 63%-i düşünür ki, qadınlar və kişilər bərabər hüquqlara malikdirlər. Evli/Əvvəllər ərdə olmuş qadınlar (67%) buna heç vaxt ərdə olmamış qadınlardan (52%) daha çox inanırlar.

Təəccüblü deyil ki, təhsil səviyyəsi qadınların cinsiyyət barədə nöqteyi-nəzərlərinə təsir etmişdir. Orta məktəbi və ya daha aşağı dərəcəli məktəbi bitirmiş qadınlar ev-eşik üzrə qərarvermədə kişinin nöqteyi-nəzərini üstün tuturdular (37%) və qadınların maliyyə işlərində pis olduqlarını fikirləşirdilər (26%). Qeyd etmək maraqlıdır ki, ictimai qərarların verilməsində kişilərin nöqteyi nəzərlərinin vacib olması barədə daha yüksək təhsil səviyyəli qadınların rəyi ümumi qadınların nöqteyi nəzərlərini çox da müəyyən etmirdi.

**Cədvəl 1.3  Cinsi nöqteyi-nəzərlər üzrə təhsil səviyyələrinin müqayisəsi**




## Fiziki Zorakılıq üzrə Nöqteyi-Nəzərlər

Təəccüblü olmayaraq, və fokus qrup müzakirələrində qadının zorakılığa görə özü məsuliyyət daşıması fikrinə uyğun olaraq, qadınların əksəriyyəti bəzi hallarda arvada qarşı ər tərəfindən fiziki zorakılıq törədilməsinin lazım olduğuna inam var idi. Kişinin arvadını döyməsinə bəraət qazandıran ən az seçilən variant "əgər arvad ailənin pullarını israf edirsə" (33%), ən çox seçilən variant isə qadın ərini hamının qarşısında utandırırsa (40%) cavabları idi. Bir fərd siyahıda olmayan "arvadın kənarda məşuqu varsa" halını təklif etmişdi. QSI 42%-i kişinin qadını vurması "heç vaxt düz deyil" deməsi ilə yanaşı, bu statistika həm də aldadıcıdır, çünki həmin cavabı verən qadınların bəziləri, eyni zamanda, müəyyən hallarda qadına qarşı fiziki zorakılığın qazanılmış olmasını ifadə etmişdilər.

**Cədvəl 1.4  Kişinin qadını döyməsi nə zaman düzgündür**




Zorakılıq barədə məlumat verilməsinə aid olaraq, QSI 66%-i düşünürdülər ki, zorakılığa məruz qalmış qadın yardım almaq məqsədilə kiməsə bu barədə danışmalıdırlar. Lakin evli/əvvəllər ərdə olmuş qadınlardan yalnız 57%-i heç vaxt ərdə olmamış qadınların 82%-nə əks olaraq bu cür cavab tədbirini seçmişdilər. QSI-dan əlli üç faizi (53%) qonşularının ərləri tərəfindən döyülməsindən xəbər tutduqları zaman kömək üçün müdaxilə edəcəklərini ifadə etdilər. Evli qadınların əlli səkkiz faizi (58%), heç vaxt ərdə olmamış qadınların isə 43%-i müdaxilə edəcəklərini dedilər. Belə fərz etmək olar ki, evli/əvvəllər

ərdə olmuş qadınlar qadının zorakılıq barədə məlumat verməsinin düzgün olmasına az inansalar da, bu kateqoriyadan olan qadınların zorakılığa məruz qalmış qonşularına ehtiyac olduqda köməyə gəlmələri daha çox ehtimal olunur.

## Yaxın Əlaqədə Olan Partnyor Tərəfindən Törədilən Zorakılıq

73 nəfər ərdə olan qadınlardan 43%-i hal hazırda onların ailə münasibətlərində yaxın əlaqə zorakılığını (YƏZ) etiraf etmiş, bunlardan 26%-i psixoloji zorakılıq, 33%-i fiztkt zorakılıq və 15%-i ailə zorlaması halları barədə məlumat vermişlər[34]. Təəccüblü deyil ki, bu üç növ zorakılıq barədə məlumatların bir birini üstələməsinə rast gəlinir. Maraq üçün, hal hazırda həyatlarında zorakılığın baş verməsini xəbər verən qadınların 74%-i onlar hələ uşaq olduqları vaxt öz valideynləri arasında zorakılığın şahidi olmalarını demişdilər. Nə qədər təəssüfedici olsa da, YƏZ barədə məlumat verən ərdə olan qadınların 32%-i, həmçinin, onlara qarşı kənar şəxs və yaxud ərinin ailə üzvləri tərəfindən törədilmiş zorakılıq barədə də xəbər vermişdilər. Cədvəl 1.5-də məlumat verilən YƏZ-nın müxtəlif növləri göstərilmişdir. Nisbətlər sorğularda iştirak edən respondentlərdən evli qadınların ümumi sayına əsaslanmışdır.

**Cədvəl 1.5 Evli qadınların ümumi sayına görə məlumat verilmiş yaxın əlaqə zorakılıqlarının növləri.**




## Zorakılıq Hallarının Şəxsi Tarixçəsi

Ümumi 134 nəfər QSI-dən 37%-i onlara qarşı həyatlarında baş vermiş müxtəlif növ zorakılıqlar barədə xəbər vermişlər. Iyirmi doqquz faiz (29%) qadın müxtəlif növ psixoloji zorakılıq, 27% fiziki zorakılıq və 8% cinsi zorakılıq barədə məlumat vermişdir.

Aşağıda zorakılıq hadisələrinin baş verməsi üçün ən çox ehtimal olunan hallar göstərilmişdir[35]:

| | |
|---|---|
| **Ər içkiyə və ya narkotik maddələrə qurşandığı zaman** | 31% |
| **Ailədə pul çatışmamazlığı olduğu vaxt** | 24% |

[34] BŞBIA Azərbaycan/XNPM *Reproduktiv Sağlamlıq Sorğusu* ilə müqayisə edildikdə, bu qiymətləndirmədə qadınlar daha çox fiziki və cinsi zorakılıq hadisələri barədə məlumat vermişdilər

[35] Nisbətlər suallara cavab verən 29 QSI-na əsaslanmışdır. Qadınların qalanı ya cavabdan boyun qaçırmış, ya da ki, bu onlara aid deyildi.

| | |
|---|---|
| **Mənimlə ərimin anası arasında olan münasibətlərə görə** | 21% |
| **Yaxın partnyorumun işsiz olduğuna görə** | 17% |
| **Qısqanclığa görə** | 10% |
| **Evdə ərzaq çatışmamazlığına görə** | 10% |
| **Mən hamilə olduğum zaman** | 7 % |
| **Bu normal haldır** | 7 % |
| **Mən içkiyə və ya narkotik maddələrə qurşandığım zaman** | 3% |
| **Mən uşaq doğduqdan sonra** | 3% |
| **Mən işsiz olduğuma görə** | 3% |
| **Mən öz uşağımı döyürdüm** | 3% |
| **Mənim etdiyim hərəkətimə görə (Bu mənim günahım idi)** | 3% |
| **Ərim yorğun olduğu zaman** | 3% |
| **Ərim cavan olduğu vaxt** | 3% |

Bu nəticələr təəccüb doğurmur. Zorakılığı törədənin işsiz olması və maliyyə təminatının yoxluğu ailədə gərginliyi artırır və bu halı müşayiət edən zərəli mexanizmləri, o cümlədən, narkoti maddələrdən və spirtli içkilərdən istifadə olunmasını gücləndirir. Bu amillərin bir yerdə olması yaxın əlaqə münasibətlərində zorakılığın baş verməsi ehtimalını artırır.

Doqquz fərd YƏZ-nın əzişdirilmələrlə, kəsmə yaralarla və ya digər fiziki bədən xəsarətləri ilə nəticələnməsini göstərmişdir. Lakin yalnız bir qadın tibbi yardım almaq üçün həkimə müraciət etmişdir. Zorakı münasibətlərdə olan evli qadınların on doqquz nəfəri (61%) zorakılıq haqqında başqa bir şəxsə danışmışdır. Xəbər verilən ilk şəxs ailənin başqa bir üzvü olub. Zorakılıq barədə heç kimi xəbər verməyən qadınlara gəlincə, onların bunu etməmələrinin əsas səbəbi öz ailələri barədə heç kimə bir söz deməmək istəkləri olmuşdur.

## Kənar Şəxs Tərəfindən Zorakılıq

Evli qadınların 58%-i indiki *yaxın əlaqə münasibətlərində* zorakılığın olmaması barədə məlumat versələrdə, bu qadınların 14%-i kənar şəxs və yaxud ərin ailə üzvü tərəfindən törədilmiş zorakılığın qurbanı olması barədə məlumat vermişdir. Maraqlıdır ki, heç bir qadın doğma ata ailəsindən kənarda və ya ərinin ailə üzvü tərəfindən törədilmiş hər hansı zorakılığın qurbanı olması barədə heç vaxt məlumat verməmişdir.

QSI-nın ümumi sayından 23%-i kənar nəsildən və ya ərin ailə üzvləri tərəfindən onlara qarşı törədilmiş zorakılıq haqqında məlumat vermişdilər. Məlumat verilən zorakılığı törədənlər, əsasən, atalar, qardaşlar, qayınatalar və qayınanalar olmuşlar. Heç vaxt ərə getməmiş qadınların 29%-i doğma ata ailəsinin qohumları, əsasən, atalar və qardaşlar tərəfindən törədilmiş zorakılığın qurbanları olması barədə məlumat vermişdilər. Kənar şəxsin törətdiyi zorakılıq barədə məlumat verən on altı qadın (52%) hadisə barədə başqalarına, əsasən, yaxın ailə üzvlərinə və ya rəfiqələrinə danışdıqlarını demişdilər. Başqa şəxslərə xəbər verilməməsinin səbəbi yenə də ailənin söhbətlərə məruz qalacağı qorxusu olmuşdur.

## Doğma Ata Ailəsində Törədilən Zorakılıq

Indiki *yaxın əlaqə münasibətlərində* zorakılığın olmaması barədə məlumat vermiş qadınların yalnız 24%-i uşaqlıqda öz valideynləri arasında yaşanmış zorakılığın şahidi olmalarını demişlər (indiki yaxın əlaqə münasibətlərində zorakılığın olması barədə məlumat vermiş və bu halın şahidi olmuş 74% qadınlarla müqayisədə). Ümumi olaraq əlli yeddi respondent (43%) uşaqlıqda onların valideynləri arasında ailə zorakılığının hər hansısa formasının şahidi olmalarını qeyd etmişdilər. Zorakılığın əsas törədiciləri onların ataları olmuş, lakin bəzi hallarda analar da bunu etmişlər.

**Siz uşaq olanda ata və ananızın arasında bu halların baş verməsinin şahidi olmusunuzmu?**

| | | Ana | Ata | Hər ikisi | Cavabsız |
|---|---|---|---|---|---|
| **Təhqiredici sözlərin deyilməsi** | Say | 3 | 24 | 3 | 1 |
| | % | 2.2 | 17.9 | 2.2 | .7 |
| **Başqa adamın pula əl vurmasının qadağan olunması** | Say | 1 | 5 | 2 | |
| | % | .7 | 3.7 | 1.5 | |
| **Başqa adamın evdən çıxmasının qadağan olunması** | Say | 2 | 11 | 3 | |
| | % | 1.5 | 8.2 | 2.2 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Başqa adamın itələnməsi və ya dümsüklənməsi** | Say | | 1 | 5 | |
| | % | | .7 | 3.7 | |
| **Başqa adama nəyinsə atılması** | Say | 1 | 9 | 3 | |
| | % | .7 | 6.7 | 2.2 | |
| **Başqa adamı açıq əllə vurma (silllə)** | Say | 3 | 15 | 3 | |
| | % | 2.2 | 11.2 | 2.2 | |
| **Başqa adamı qapalı əllə vurma (yumruqlama)** | Say | 1 | 9 | 3 | |
| | % | .7 | 6.7 | 2.2 | |
| **Başqa adamı əşya ilə vurma (qazança, lampa, ağac parçası, alət)** | Say | | 8 | 2 | |
| | % | | 6 | 1.5 | |
| **Başqa adamı bıçaq və ya silahla hədələmə** | Say | 1 | | | |
| | % | .7 | | | |
| **Başqa adamın vəhşicəsinə kötəklənməsi** | Say | 1 | 9 | 1 | |
| | % | .7 | 6.7 | .7 | |
| **Başqa adamın onlarla cinsi əlaqəyə girməsi üçün fiziki məcbur olunması** | Say | | 1 | | |
| | % | | .7 | | |
| **Mən uşaq olduğum zaman bu halların heç biri mənim ailəmdə baş verməmişdir** | Say | 64 | | | |
| | % | 47.8 | | | |
| **Suala cavab vermək istəmirəm** | Say | 12 | | | |
| | % | 9 | | | |

## Xidmətin Təmin Olunması

Qadınlardan yalnız 22 nəfəri (16%) fiziki və ya cinsi zorakılığın qurbanı olan qadınlar üçün yaradılmış xidmətlərdən xəbərləri olduğunu qeyd etmişdilər. Lakin onlardan hansı xidmət növlərindən xəbərləri olmasını soruşduqda, qadınların verdikləri cavablar, əsasən, "qadınların problemlərini həll edirlər", "maliyyə yardımı göstərirlər" və "işsizlik problemini həll edirlər" kimi ifadələr olmaqla, konkret olaraq heç nəyi göstərmirdi. Altı qadın bu məsələyə aid olan televiziya proqramlarını gördüklərini dedilər, dörd qadın isə qadınların böhran mərkəzlərini yada saldılar. Qadınlardan hər biri "həkim", "xəstəxana", "vəkil" və "psixoloq" sözlərini ifadə edirdi. Cavablardan aydın olurdu ki, qadınların çox az qismi bu vəziyyətə düşmüş qadınlar üçün yaradılmış mövcud xidmətlərdən xəbərdar idilər.

## Əlavə Qeydlər

Bütün QSI-na sorğularda verilən hər hansı suallar barədə əlavə məlumat vermək imkanı verilmişdi. Qadınların əksəriyyəti fokus qruplarına və müzakirələrə cəlb olunmalarına müsbət cavab və reaksiya verirdi. Çoxları, həmçinin, qadınların bu cür proqramlardan faydalanmasını arzu etmişdilər.

# Kişi Fərdi Sorğularının Nəticələri

Kişilərlə sorğular aprelin 4-dən 9-na kimi aparılmışdı. Azərbaycanın 11 rayonundan ixtiyari seçilmiş bir yüz (100) kişi sorğuda iştirak etmişdi. Respondentlər potensial törədicilərin xüsusiyyətlərinə toxunmayaraq, sorğular kişilərin cinsiyyət məsələlərinə və qadınlara qarşı zorakılığa münasibətlərini öyrənmək üçün təşkil edilmişdi. Sorğular azərbaycan dilində azərbaycanlı kişi aparıcının vasitəsilə aparılmışdır. Təəssüf ki, təlim keçmiş kişi aparıcıların olmamasına görə kişilərin fokus qrupları təşkil olunmamışdır.

## Əsas Demoqrafik Məlumatlar

Azərbaycanın 11 rayonunda 19-dan 68 yaşa qədər bir yüz (100) kişi sorğuda iştirak etmişdir. Kişi sorğu iştirakçısının (KSI) orta yaş həddi 42 yaş təşkil etmişdir. KSI 93%-i evlidir və 95%-nin ən azı 1 uşağı var (hər evli kişi respondentə orta hesabla 3 uşaq olmaqla).

| **Indiki ailə vəziyyətiniz necədir?** | | |
|---|---|---|
| | **Tezlik** | **Faiz** |
| **Evli** | 93 | 93.0 |
| **Evliyəm, amma arvadım maliyyə səbəblərinə görə başqa yerdə qalır(maliyyə)** | 1 | 1.0 |
| **Yaxın partnyorumla yaşayıram, amma evli deyiləm** | 2 | 2.0 |
| **Dul qalmışam** | 1 | 1.0 |
| **Heç vaxt evlənməmişəm** | 3 | 3.0 |
| **Ümumi** | 100 | 100.0 |

Bütün KSI-ı ən azı ibtidai məktəbi bitirmiş, 67%-i texniki/peşə məktəblərini və ya institutu bitirmişlər.

| Bitirdiyiniz ən yüksək təhsil dərəcəsi hansıdır? | | |
|---|---|---|
| | **Tezlik** | **Faiz** |
| **Ibtidai Məktəb** | 2 | 2.0 |
| **Orta Məktəb** | 31 | 31.0 |
| **Texniki Peşə Məktəbi** | 15 | 15.0 |
| **Texnikum** | 23 | 23.0 |
| **Universitet** | 29 | 29.0 |
| **Ümumi** | 100 | 100.0 |

KSI yalnız 49%-i evdən kənarda həftədə ən azı 20 saat olmaqla işləmişdir. Məlumat verilən işlərin çoxu kənd təsərrüfatı (43%), biznes (12%) və ya təhsil (10%) sahələrinə aiddir. Kişinin evdən kənarda işləyib-işləməməsinə onların aldıqları təhsil səviyyəsinin təsiri yoxdur. Hal hazırda arvadı və ya yaxın partnyoru ilə yaşayan KSI-dan iyirmi bir faizi (21%) parnyorlarının hal hazırda evdən kənarda işləmələrini qeyd etdilər. Işləyən qadın partnyorlardan 62%-i həftədə 20 saat və ya daha artıq, 62%-i müəllimə olmaqla işləyirlər.

## Qadın və Kişi Nöqteyi-Nəzərləri

Ev-eşik və ictimai işlərdə KSI-nın əksəriyyəti kişilərin və qadınların nöqteyi-nəzərlərinin bərabər dərəcədə vacib olmasını hesab edirlər (müvafiq olaraq 69% və 73%). Evdən kənarda həftədə 20 saatdan çox olmayaraq işləyən kişilərin fikrincə ev-eşik məsələlərində (33%) və ictimai qərarların verilməsində (31%) kişilərin nöqteyi-nəzərləri vacibdir, bu cür fikirləşən evdən kənarda həftədə 20 saatdan çox işləyən kişilərin sayı isə az idi (müvafiq olaraq 25% və 20%). Bundan başqa, evdən kənarda işləyən kişilər daha çox qadınların maliyyə işlərini yaxşı idarə etdiklərini düşündükləri halda (69%), evdən kənarda işlə məşğul olmayan kişilər bunun əksini fikirləşirdilər (61%). Orta məktəb və ya daha aşağı təhsilli kişilərin (36%) texniki/peşə məktəbi və ya daha yüksək səviyyəli təhsilə malik kişilərlə (25%) ev-eşik məsələlərində kişinin nöqteyi-nəzərinin vacib olması barədə müqayisəli fikir ayrılığı istisna olmaqla, təhsil səviyyəsi kişilərin cinsiyyət məsələlərinə münasibətlərinə az təsir edir.




**Cədvəl 2.1 Ev-eşiklə əlaqədar qərarların verilməsi üzrə nöqteyi-nəzərlər-kişilər**




**Cədvəl 2.2 İctimayi qərarların verilməsi üzrə nöqteyi-nəzərlər**

KSI-nın yetmiş yeddi faizi (77%) oğlanların və qızların təhsil almasını bərabər olaraq vacib hesab edir. Təkrarən, əmək məşğuliyyətinin dərəcəsi burada da amil kimi çıxış edərək, evdən kənarda həftədə 20 saatdan az işləyən kişilərin oğlanların təhsil almasını daha vacib hesab etmələri (15%) və evdən kənarda həftədə 20 saatdan çox işləyən kişilərin (10%) bunun əksini fikirləşməsi ilə müəyyənləşdirmək olar.

**Cədvəl 2.3 Cinsindən asılı olaraq təhsil almanın əhəmiyyətinə aid nöqteyi-nəzərlər-kişilər**




KSI-nın 90%-i kişi və qadınların qanuna görə bərabər hüquqlara malik olmalarını düşünsələr də, evdən kənarda işləyən kişilər (98%) buna evdən kənarda işləməyən kişilərdən (82%) daha çox inanır. Iş statusunun cinsiyyət nöqteyi-nəzərləri ilə münasibəti aşağıda aydın şəkildə göstərilmişdir.

**Cədvəl 2.4 Əmək məşğulluğu və gadın-kişi nöqtevi nəzərləri**




## Fiziki Zorakılıq Haqqında Nöqteyi-Nəzərlər

KSI-nın əksəriyyəti qadına qarşı kişinin fiziki zorakılıq törətməsinə əsas olan halların olmasını ifadə etmişdilər və bu Cədvəl 2.4 işıqlandırılmışdır.

**Cədvəl 2.5 Kişi qadını nə vaxt döyə bilər –kişilər**




Ən çox seçilən hallar qadının ərinə birbaşa tabe olmaması (33%), bundan sonra gələn isə ərini hamının qarşısında pərt etməsi və utandırmasıdır (31%). Ən az seçilən variant qadının ərinə istədiyi xörəyi bişirməməsi variantıdır (9%). Kişilərin qırx bir faizi qadının kişi tərəfindən vurulmasını qəbuledilməz sayırlar. Lakin QSI ilə rast gəlinən hala oxşar olaraq, bəzi kişilər bu seçimi seçmiş və eyni zamanda bəzən döyülməni düzgün saydıqlarını ifadə etməklə bu statistikanın nəticələrini də etibarsız etmişdirlər. Qeyd etmək maraqlıdır ki, 41% KSI və QSI kişinin qadını vurmasını heç vaxt düzgün olmadığını

göstərdiyi halda, kişilər orta hesabla hər seçilmiş hadisəyə görə qadınlarla müqayisədə daha az nisbətlərə malik idilər.

Maraqlı olsa da, təəccüblü deyil ki, orta məktəb təhsilindən yüksək təhsilli və evdən kənarda həftədə 20 saatdan çox işləməyən kişilər arvadların bəzi hallarda kişilər tərəfindən döyülməsini yol verilə bilən hal hesab edirdilər.

Qadın partnyoru tərəfindən fiziki zorakılığa məruz qaldığı zaman bu onun öz günahlarına görə baş verməsinə arxalanan qəbul edilmiş ənənəyə uyğun olaraq, KSI-nın əksəriyyəti (65%) qadının öz davranışını yaxşılaşdırmasını, 45%-i qadını ərindən onu pərt etdiyinə görə üzr istəməsini və 16%-i qadının heç bir şey etməməsini düşünmüşlər. Iyirmi səkkiz faiz qadının ailə üzvü ilə danışmasını və ancaq 8% onun həkimə müraciət etməsini və 4% polisə getməsini fikirləşmişdi. Bir nəfər qadının ərinə cavab olaraq onu vurmasını qəbul edirdi. Otuz altı faiz (36%) inanırdı ki, ailədə fiziki zorakılıq normal haldır və buna görə heç bir şey etmək lazım deyil, 49% isə zorakılığa son qoymaq üçün ərin köməyə ehtiyacı olmasını və onun kiminləsə danışmasını vacib hesab edirdi. On iki faiz (12%) fikirləşirdi ki, arvad ərindən boşanmalıdır. Bu nəticələr heç bir təəccüb doğurmurdu və fokus qruplarında qadınların ifadə etdikləri qəbul olunmuş ənənələri və normaları əks etdirirdi. KSI az qala yarısı kişinin öz davranışlarına görə kömək axtarmasını göstərməklə yanaşı, zorakılığın qadının ucbatından baş verməsinə inanılırdı və yalnız çox cüzi azlıq fikirləşirdi ki, qadın başqasından kömək almaq üçün ailədən kənara çıxmalıdır.

Qeyd etmək maraqlıdır ki, KSI-nın 51%-i qonşu öz arvadını döydüyü halda işə qarışacaqlarını dedilər. Lakin 78%-i öz qızlarının onların ərləri tərəfindən döyüldüyü halda müdaxilə edəcəklərini bildirdilər. Kənarda işləməyən kişilər qonşulara (61%), qızlarının münasibətlərinə (84%) qarışacaqlarını evdən kənarda həftədə 20 saatdan çox işləyən kişilərdən daha çox bildirmişdilər (müvafiq olaraq 41% və 71%).

Yetmiş üç faiz ərlərin qadınlar tərəfindən döyülməsini qeyri mümkün hesab etmişdilər.

Yalnız 11% inanırdı ki, ər və arvad arasında olan problemlər sosial məsələdir və bunun qarşısını almaq və qurbanlara kömək etmək üçün cəmiyyətin bütün üzvləri birləşməlidirlər. Qalan iştirakçılar hesab edirdilər ki, bu ərlə arvad arasında olan şəxsi məsələdir və ona görə də evdə də qalmalıdır.

### Cinsi Zorakılıq

KSI-nın on beş faizi (15%) düşünürdü ki, cinsi əlaqə qadının ərinə olan borcudur və kişilər öz arvadları ilə istədikləri vaxt, hətta qadın lap yorulmuş vəziyyətdə olsa da, cinsi əlaqəyə girmək imkanına malik olmalıdırlar. Bu ərdə olan QSI-nın verdikləri ailə zorlaması nisbəti ilə (15%) tamamilə üst üstə düşür. Yetmiş altı faiz (76%) KSI fikirləşir ki, kişilər və qadınlar qərar vermək üçün bərabər hüquqa malikdirlər, 9%-i isə bu suala cavab verməməyi üstün tutmuşdular.

### Proqram tərtibatı

Sorğuda iştirak edənlərin yetmiş doqquz faizi (79%) ailələrdə zorakılığın qarşısını almağa yönəlmiş proqramlara cəlb olunmalarını, 16%-i cəlb olunmamalarını və 5%-i isə cavab vermək istəmədiklərini ifadə etdilər. Bu, əhalinin təqdim olunmuş mövzu üzərində şaxələnən fikir və nöqteyi nəzərlərini əks etdirir. Qadınlarla olduğu kimi, kişilər həm bu məsələnin ailə daxilində qalmasını (89%) istəyir, həm də qarşısı alınma proqramlarına cəlb olunmaq üçün maraqlarını göstərirlər.

### Əlavə Qeydlər

Sorğu anketinə aid olaraq başqa qeydləri olub-olmamaları barədə sual verildikdə, qadınlardan fərqli olaraq cəmi 7 fərd əlavə qeyd verdi, 2 fərd qeyd etdi ki, onlar bu mövzu barədə gələcək müzakirələrdə iştirak etmək arzusundadırlar. Cəmiyyətdə bu problemin dərinliyinə aid olaraq bir fərdin dediyi sözlər adamı riqqətə gətmişdi: "Biz çox gecikmişik".

## Sorğu Nəticələrinin Qarışıq Amilləri

Aydın olmuşdur ki, sorğu nəticələrinin etibarlılığını şübhə altına qoya bilən xas olan çətinliklər var idi və buna görə də sorğuda alınan cavabları qiymətləndirərkən aşağıdakılar nəzərə alınmalıdır:

- ♦ Təkrar müzakirələr və sualların və cavabların dəqiqləşdirilməsi üçün imkan əksər hallarda mümkün deyil. Sorğu iştirakçısının sualı tam başa düşməsinə və yaxud sorğu aparıcısının cavabı başa düşməsinə zəmanət verilmir.

- Bir çox sorğularda iştirakçıların məxfiliyinə və təhlükəsizliyinə zəmanət verilmirdi. Xüsusilə, qadın iştirakçıların anonimliyinə zəmanət verilmirdi. Qrupda bütün qadınlar bir birini tanıyır və sorğunu kimin apardığını bilirdilər. Sorğular yerlərdə mümkün olduqca məxfi və təhlükəsiz qaydada aparılsa da, yaxın əhatədə kişilər var idi və bəzi hallarda onlar fokus qrup iclasları zamanı içəri keçmişdilər. Bu imkan təhlükəsizlik hissini azaltmış və saxta neqativlərin olma imkanını artırmışdı.

- Aktiv cəmiyyət qadınları iştirak etmək üçün gəldiyi halda, az maraqlanan qadınlar bunu etməyə bilər, bu da qadınların gəldikləri icmaları tam təsvir etməyən nəticələrin olmasına səbəb ola bilər.

- Qadın fokus qruplarından sonra qadın sorğularının keçirilməsi sorğuların nəticələrinə təsir edə bilər. Lakin bu aşağıdakılar olduğu halda məlum deyildir:
  a) Onlar zorakılıq hadisələri barədə məlumat verilməsinə müəyyən azadlıq vermişdir; və ya
  b) Onlar qadınları aparıcıların faktiki olaraq inandıqlarının əksinə olaraq eşitmək istəyə biləcəkləri cavabları verməsinə ürəkləndirmişdi; və ya
  c) Qadınlar məlumatvermənin çoxalmasını onların icmalarında proqramlaşdırmanın yerinə yetirilməsi ehtimalını artırması ümidi ilə məlumatın verilməsini daha çox istəmişlər.

- Kişi-qadın nöqteyi-nəzərlərinə aid olan suallar reallığı əks etdirmək üçün verilmir. Sorğu iştirakçıları ictimai qərarların verilməsində qadın və kişilərin bərabər nöqteyi nəzərlərə malik olmasına *inandıqlarını* göstərsələr də, qeyd olunmuşdur ki, qadınlar ictimai qərarvermə prosesinə cəlb olunmamışlar. Qadınlar üçün daha uyğun olan sual "Mən ictimai qərarların verilməsində iştirak edirəm" və ya buna oxşar sual ola bilərdi. Fikirlər və əməllər həyatda çox zaman tam müxtəlif olur.

- Kişi sorğuları üçün imtina göstəricisi barədə heç bir məlumat yoxdur (yəni, neçə nəfər imtina etmişdir və nə üçün). Qırx bir (23%) fokus qrupu qadınları fokus qrupundan sonra gələn sorğularda iştirak etməmişdir. Sorğular tam olaraq seçim əsasında aparılırdı və heç bir qadından nə üçün sorğuda iştirak etməməsi soruşulmurdu. Imtina göstəriciləri nəticələrdə xəta yarada bilər, çünki "imtina edən əhali" əhəmiyyətli verilənlər dəstini təşkil edə bilərlər. Formal olaraq qadınların nə üçün imtina etmələrini fərz etmək qeyri müvafiq olardı. Lakin məlum olmuşdur ki, zorakılıqdan xilas olmuş kimi eyniləşdirilən (ya özü məlumat verərək, ya da ki, başqa iştirakçılardan soruşmaqla) bəzi qadınlar sorğularda iştirak etməmək seçimini etmişdilər.

# Nəticələr

Bütün dəlillər Azərbaycanda qadına qarşı zorakılığın reallığını və indiki dövrün qayğısı olmasını göstərir. Həm hökumət, həm də əhali kişilərin və qadınların bərabər olması fikrini irəli çəksələr də, qüvvələrin bərabərsizliyi, psixoloji, fiziki və, müəyyən dərəcəyə qədər, cinsi zorakılıq norma kimi qəbul olunur və zorakılığa məruz qalmış qadınlar üçün proqramlaşdırma imkanlarının səviyyəsi minimaldır.

Həm AD, həm də QHT sektorunda cavab tədbirləri nizamsız və uzlaşdırılmamış vəziyyətdə qalmaqdadır. Xidmətlərin təminatında və xəbərdarlığın artırılmasında bu yaxınlarda edilən əlavələr ümidləndirici olsa da, bu tədbirlər ancıq Bakıda həyata keçirilmiş və asan əldə olunan və hərtərəfli xidmətlərin alınmasını təmin etmirlər. Bu sahədə donor fəaliyyəti minimal səviyyədə olaraq qalır. Ehtiyacı olan qadınların dözmək/boşanmaq seçimləri arasında qalması və ictimaiyyətin bu problemə qarşı səfərbər olunmaması zorakılıq qurbanlarının günahlandırılması və zərərli ailə həlli mexanizmlərinin davam etməsini təmin edir.

Fokus qrupları müzakirələrində və qadın sorğularında verilən məlumatlar qadınlara qarşı zorakılığın mütəmadi baş verdiyi halları göstərən həyata keçirilmiş əvvəlki tədqiqatlara uyğun gəlir. Qiymətləndirmə aparılan ərazilərdə yaxın əlaqə partnyorları, qan və qeyri-qan qohumları tərəfindən törədilən psixoloji, fiziki və cinsi zorakılıqlar hələ də baş verməkdədir. Qadınlara qarşı zorakılığın qəbul olmasına aid şaxələnən münasibətlər və nöqteyi-nəzərlər qeyri-zorakı münasibətlərin və sağlam ailə və cəmiyyətlərin yaradılması təbliğ olunan səhnədə çaşdırıcı mühit yaradır. Dəyişikliklərin həyata keçirilməsi üçün bir çox imkan və fürsətlərin olmasına baxmayaraq, gizlilik pərdəsi bu məsələnin həll olunması üçün bütün cəhdləri heçə endirir.

Rayonlarda qarşısı alınma və cavab tədbirlərinin bütün sahələrində böyük boşluqlaq qalmaqdadır: cəmiyyətin səfərbər olunması, tibbi yardım, hüquqi yardım, psixoloji yardım və qadınlar üçün özünəinam (maliyyə qazanma səlahiyyətləri) fəaliyyətləri. Problemin az başa düşülməsi və etiraf edilməsi səbəbindən Azərbaycanda qadınlar müvafiq və vaxtlı vaxtında təmin edilməli xidmətləri və ya kömək üçün imkanları minimal əldə etməklə təhqirlərə məruz qalmaqda davam edirlər. Bu problemin göstərilməsi üçün bütün tərəflərin birgə səyləri olmasa, vəziyyəti dəyişmək mümkün olmayacaq və Azərbaycanda qadınlar hər gün psixoloji, fiziki və cinsi zorakılığa məruz qalacaqlar.

# Qarşısını alma və cavab tədbirləri:

# Proqram tərtibatı üçün məsləhət olunan göstərişlər

Qiymətləndirmənin nəticələrinə əsaslanaraq, Azərbaycanda qadınlara qarşı zorakılığın profilaktikası və ona cavab tədbirləri üçün aşağıdakıları yerinə yetirmək məsləhət görülmüşdür:

- Azərbaycanın uzunmüddətli inkişafına və davamlılığına maneə olan qadınlara qarşı zorakılığı tanımaq üçün birbaşa maliyyələşdirmə və ya eksklüziv olaraq bu məsələyə görə yığılan vəsaitləri yönəltməklə ənənəvi və qeyri-ənənəvi donorları lobbiləşdirmək üçün bütün vasitələrdən istifadə olunmalıdır.

- Qadınlara yönəldilmiş QHT-rı arasında əməkdaşlığa kömək olunmalıdır ki, bütün səylər uzlaşdırılsın və uyğunsuzluqlar minimallaşdırılsın. Uzlaşdırmanın artırılması daha dinamik dövlət və donor yardım sistemini təmin edə bilər.

- Icraiyyə Komitələri, Bələdiyyələr və Mərkəzi dövlət orqanları qarşısı alınma və cavab tədbirləri təşəbbüslərinə aid olan əvvəli AD və ya dövlətin dalında durduğu sənədləri (Prezident Fərmanları, YAQIIDP, Qadın Işləri üzrə Dövlət Siyasəti, BŞBIA/XNPM Reproduktiv Sağlamlıq Sorğusu) istifadə etməklə ruhlandırılmalıdırlar.

- Azərbaycanın bütün regionlarında qadınların vacib olan cavab xidmətlərini, o cümlədən, adekvat və müvafiq olan zorakılıqdan sonra tibbi müalicə, qəza və təhlükəsiz daldalanacaq təminatı, qəza yardım telefon xəttləri, ictimai psixoloji-sosial proqramlar və ictimai təhsil təşviqatları, almasını təmin etmək üçün Dövlət idarələri ilə sıx əməkdaşlıq edərək qlobal proqramlar həyata keçirilməlidir.

- Cinsi-müstəqil məlumatların və xüsusilə qadınlara qarşı cinayətlərə və hər hansı məhkəmə cəzalandırma nəticələrinə aid olaraq məlumatların toplanılmasında aidiyyatlı Dövlət idarələrinə kömək göstərilməlidir, və, ümumiyyətlə, Azərbaycanda qadının statusu dəyişilməlidir.

- Aidiyyatlı Dövlət idarələri, polis qüvvəsinin üzvləri və məhkəmə işçiləri qadınlara qarşı zorakılıq üzrə və zorakılığın aradan qaldırılmasında hüquq sisteminin uyğunluğunu təmin etmək üçün müvafiq təhsil-təlim almalıdırlar.

- Bütün tədqiqatlar humanitar təşkilatların, dövlət və digər əsas iştirakçıların Azərbaycanda qadına qarşı zorakılıq probleminin həcmi və onun ölkənin uzunmüddətli davamlılığına və inkişafına təsiri konsepsiyasını yaratmalarına kömək etmək məqsədilə geniş yayılmalıdır.

- Böhran vəziyyətinə düşmüş qadınlara birbaşa yardımın təmin olunmasına yönəldilmiş proqramlar QHT-nın fəaliyyətini dayandığı halda həyata keçirilə bilmirsə, bu cür proqramlardan vaz keçilməlidir. Bu qadınları başqa xidmət göstəricilərinin mövcud olmamasına görə köməksiz qoya və zəiflədə bilər.

- Hər hansı proqrama bütün cəmiyyət qiymət verməlidir və yalnız qadının qiyməti nəzərə alınmamalıdır. Belə olarsa, şübhə azalar və hər hansı yaxın əlaqə partnyoru ilə münaqişənin qarşısı alınar. Bu, proqramın açıq təqdimatı və yaxud proqramın həyata keçirilməsində həm qadınları, həm də kişiləri dəvət etməklə yerinə yetirilə bilər.

- Qadına qarşı zorakılığı birbaşa göstərən proqramların törədicilər/potensial törədicilər üzrə proqramı olmalıdır. Lakin törədicilərin fokus müzakirələrində onlara proqramlaşdırma qərarvericiliyində son sözə malik olma təəssüratını verməklə zorakılığın qurbanlarına həsr olunmuş fokus müzakirələri heç vaxt zərbə altına qoyulmamalıdır.

- Rayonlarda maliyyələndirmə və ya vaxt məhdudiyyətlərinə görə təkcə xəbərdarlığın artırılmasına yönəlmiş proqramlar ehtiyatla həyata keçirilməlidir. Profilaktika proqramının vacib funksiyası olsa da, o, zorakılıq münasibətlərini yaşayan qadınlara heç bir konkret seçim vermir və dözmək/boşanmaq/seçimin olmaması dilemmasını təsdiq edə bilər. Qadınlar yardım üçün yaxınlaşa bilər və bu zaman heç bir xidməti ala bilməyəcəklərini görə bilərlər.

- Proqramlaşdırma sahəsində qərar qəbul edərkən işçilərin və benefisiarların təhlükəsizliyi nəzərə alınmalıdır. Təcrid olunmuş tətbiq sahələri təcili köməyin olmamasına görə işçilərin və qadınların

risk ehtimalını artırır. Işlərin ucqar yerlərdə aparılması tələb olunursa, ilkin mərhələlərdə həm işçilərin, həm də benefisiarların təcili köçməsi üçün təhlükəsizlik planı yaradılmalıdır.

- Regional milli QHT-nın fəaliyyətlərini və davamlılığını artırmaq üçün bütün proqramlara milli partnyorlar cəlb olunmalıdır.

- Qadınlara qarşı zorakılığın ictimai müzakirə üçün qəbul olunan mövzu olmadığını nəzərə alaraq, davamlılığı təmin etmək üçün hər hansı proqramların təmkinlə və asta tətbiq olunması gözlənilməlidir.

## İstifadə olunmuş ədəbiyyat


Amnesty International, *Qadınlara Qarşı Zoakılıq Yekun: Faktlar və Rəqəmlər – Xülasə,* 2004.

Bakı Dövlət Universiteti & Bakı Təhsil Informasiya Mərkəzi, *Azərbaycanın Sosial Xidmət Işlərində Müasir Sosial Problemlər və Çatışmamazlıqlar: Qiymətləndirmə Hesabatı*, Bakı, 2003.

Helsinki Beynəlxalq Insan Hüquqları Federasiyası, *Qadın 2000 – Mərkəzi və Cənub-Şərqi Avropada və Yeni Müstəqillik Qazanmış Ölkələrdə Qadın Hüquqları Statusunun Yoxlanması,* 2000.

Miqrasiya üzrə Beynəlxalq Təşkilat, *Puç Olmuş Arzular: Azərbaycanda Insan Alveri üzrə Hesabat*, Bakı, 2002.

Kərimova C, Posner SF, Braun YT, Hillis S, və b. *Azərbaycanda məcburi köçkünlər arasında avtomatik məlumat verilən məcburi cinsi əlaqələrin geniş yayılması*. Amerika Ictimai Sağlamlıq Jurnalı. 2003; 93: 1067 – 1070.

Pathfinder International, *Reproduktiv Sağlamlıq və Ailə Planlaşdırılması Məsələlərinə Aid Olaraq Qaçqınların və MK-ın Biliyi, Münasibətləri və Təcrübəsi,* Bakı, 2000.

Azərbaycan Respublikası, *Qadınlara qarşı bütün növ Diskriminasiyaların Aradan Qaldırılması haqqında Konvensiya: Dövlət Partiyalarının Ilkin Hesabatları: Azərbaycan*, 1996.

Azərbaycan Respublikası, *Yoxsulluğun Azaldılması və Iqtisadi Inkişaf üzrə Dövlət Proqramı Illik Hesabat – 2003: Azərbaycan MDG nailiyyətlərinə doğru inkişaf edir*, Baki, 2004.

Azərbaycan Respublikası, *Yoxsulluğun Azaldılması və Iqtisadi Inkişaf üzrə Dövlət Proqramı,* Bakı, 2003.

Saltzman LE, Fanslow JL, McMahon PM, Shelley GA. *Yaxın Əlaqə Zorakılığının Müşahidəsi: Ümumi ifadələr və məsləhət olunan verilənlər elementləri.* Atlanta: Xəsarətlərin Profilaktikası və Nəzarət üzrə Milli Mərkəz, 1999.

Symmetry, *Qadınların, kişilərin və uşaqların nəzərində zorakılıq: Xüsusi Sorğunun Nəticələri,* Bakı, 2000

Symmetry, *Qadınlar və Zorakılıq: Hərbi münaqişələrdə zorakılıq: Ailə Zorakılığı*, Bakı 2000.

BMT. *Qadınlara Həsr Olunmuş Dördüncü Dünya Konfransı haqqında Hesabat: Hərəkət Proqramı*, Pekin, 1995.

Qadınlara qarşı Diskriminasiyanın Aradan Qaldırılması üzrə Birləşmiş Millətlər Komitəsi, *Üzv Dövlətlərin Hesabatlarının Araşdırılması: Azərbaycanın Ilkin Hesabatı (1 Sentyabr 1996)*, 1998.

Birləşmiş Millətlər Təşkilatının Inkişaf Proqramı, *Azərbaycan Respublikasında Qadınların Statusu Haqqında Hesabat*, Bakı, 2000.

Birləşmiş Millətlər Təşkilatının Inkişaf Proqramı, *Azərbaycan Insanların Inkişafı üzrə Hesabat 2003,* Bakı, 2004.

BŞBIA /Azərbaycan, *BŞBIA / Qafqaz / Azərbaycan üzrə Cinsiyyət Qiymətləndirməsi*, Bakı, 2004.

BŞBIA Azərbaycan/ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri, *Reproduktiv Sağlamlıq Sorğuları Azərbaycan*, Bakı, 2001.

Vord, J, *Indi Deyilsə, Bəs Nə Vaxt: Qaçqın, Məcburi Köçkün və Münaqişədən Sonra Salınmış Icmalarda Cinsi Zorakılığın Aşkarlanması.* Reproduktiv Sağlamlıq Konsorsiumu, 2001.

Dünya Bankı, *Keçid Dövründə Cinsi Mənsubiyyət: Dünya Bankı Şərqi Avropa və Mərkəzi Asiya Regionu*, Vaşington, DC, 2002.

## Əlaqələr Siyahısı

**Azərbaycan Gənc Hüquqşünaslar Birliyi (AGHB)**
Nadir Adilov – AGHB sədri
Ramil Isgəndərov - AGHB sədr müavini / Beynəlxalq Işlər üzrə şöbənin müdiri
Güldiyar Əsədova - AGHB sədr müavini / Qadın Hüquqları və Cinsiyyət Məsələləri üzrə şöbənin müdiri

**Köçkünlərə Hüquqi Yardım Mərkəzi**
Əlövsət Əliyev – Direktor

**Psixoloji Məsləhətlər Mərkəzi**
Leyla Ismayılova – Mərkəzin Direktoru

**Amerika Birləşmiş Ştatlarının Səfirliyi**
Laura P. Hruby – Siyasət üzrə Işçi

**Sülh və Demokratiya Institutu / Qadınların Böhran Mərkəzi**
Dr. Leila Yunus - Direktor
Dr. Isazadə Azad - Psixoloq
Dr. Təranə Həsənova - Ginekoloq
Mətanət Əzizova – Mərkəzin Meneceri

**Açıq Cəmiyyət Institutu – Yardım Fondu**
Gülnarə Məmmədova – Qadın Proqramları Şəbəkəsinin Koordinatoru

**Azərbaycan Respublikasının Milli Məclisi**
Məlahət I. Həsənova – Milli Məclis Qadın Ictimai Birliyinin sədr müavini

**Uşaqları Qoruyun ABŞ**
Linda Fardy Hayes - Proqram Rəhbəri Ailənin Planlaşdırılması və Reproduktiv Sağlamlıq

**Symmetry**
Dr. Kamilla Dadaşova – President

**Din üzrə Birləşmiş Metodist Komitəsi**
Barbara Qrinvud – Missiyanın Rəhbəri
Leyla Mustafayeva – Baş Təcrübəçi
Rəna Əlibəyova - Məsləhətçi
Leyla Ismaylova - Ginekoloq
Mətanət Vəliyeva – Icma Toplayıcısı
Vüsalə Əsədova -Tərcüməçi

**Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu**
Cəmilə Kərimova – Milli Proqram Rəhbəri
Fərid Babayev – Reproduktiv Sağlamlıq Layihəsinin Rəhbəri

**Qaçqınlar üzrə Birləşmiş Millətlər Təşkilatının Ali Komissarı**
Nailə Vəlixanova – Sahə Assistenti

**World Learning**
Julie Hamlin – Ölkə üzrə Direktor